

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## 9 iyun - xalqımızı nicata aparan tarixi gün!



5

SƏS

№ 101 (6784)

9 iyun 2023-cü il.
Qiyməti 60 qəpik

## Tarixi ədalətin bərpası, Şuşa Bəyannaməsi və yenidən qurulan Qarabağ



2

**PREZİDENT İLHAM ƏLİYEV:**
**"Şuşa Bəyannaməsi ilə Türkiyə-Azərbaycan əlaqələri rəsmən müttəfiqlik səviyyəsinə qalxıb"**

# Bəşəriyyətin, indi də təbiətin düşməni - ERMƏNİSTAN



3

## "Zavodun tikintisinə qətiyyən icazə vermək olmaz"



6

## Çimərlik mövsümünə hazırıqmı?



7

## Azərbaycanın dünyadakı rolu qlobal əhəmiyyətlidir



14



## XƏBƏRDARLIQ: "Təhsil şirkətlərinə müraciət edərkən diqqətli olmaq lazımdır"

16

## Təxribatçı, həm də xəyanətkar - Tofiq Yaqublu




10

# Tarixi ədalətin bərpası, Şuşa Bəyannaməsi və yenidən qurulan Qarabağ

## PREZİDENT İLHAM ƏLİYEV: "Şuşa Bəyannaməsi ilə Türkiyə-Azərbaycan əlaqələri rəsmən müttəfiqlik səviyyəsinə qalxıb"

Bu gün Türk xalqı böyük sevinclə verdikləri müdrik qərarlarından məmnun qaldıqlarını və Rəcəb Tayyib Ərdoğanı yenidən prezident seçməklə güclü və qüdrətli Türkiyənin tərəfində olduqlarını bəyan etdilər. Bu, təkcə türk xalqının deyil, həm də bütün azərbaycanlıların seçimi idi. Bu "2023-cü il Heydər Əliyev İli"ndə ən mühüm yarışması olan seçkilərdə sadəcə Ədalət və İnkişaf Partiyasının - Türkiyənin qələbəsi deyildi, bütövlükdə Qarabağ Zəfəri yenidən taclandı, şəhidlərimizin ruhu şad oldu, o torpaqlara sanki yeni nəfəs verildi və Zəngəzur dəhlizinin reallaşmasına əngəl olan qüvvələrin arzuları gözlərində qaldı və Rəcəb Tayyib Ərdoğanın yenidən Türkiyə prezidenti seçildi. Bu qələbə Türk qardaşlarımız qədər bizi də sevindirdi. Bu başqa cür də ola bilməz. Çünki bu qələbə qədim tarixlərin sınağından çıxmış Azərbaycan-Türkiyə - "bir millət, iki dövlət" həmrəyliyinin nəticəsi idi. Bu birliyin nəticəsini biz 2020- ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu genişmiqyaslı təxribat törətməsinin ilk günündən Qələbə Zəfrinə kimi və Zəfərdən bir il sonra Türkiyə daim bizimlə bir olub, sevincimizə, kədərimizə şərik olub. Və bu dostluğunun, qardaşlığının birliyini Qalib Azərbaycanın Zəfər Paradında və tariximizdə ilk dəfə olaraq Azərbaycan lideri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Qarabağda - Azərbaycanın mədəniyyət paytaxtı qarşılaması, ölkələr arasında müttəfiqlik münasibətləri haqqında Bəyannamənin imzalanması "bir millət, iki dövlət"in əbədi dotluğunun təcəssümüdür.



### ŞUŞA BƏYANNAMƏSİ BÜTÜN DÜNYANIN BARIŞMALI OLDUĞU TARİXİ GERÇƏKLİKDİR

15 iyin 2021-ci il Türkiyə-Azərbaycan, "Bir millət, iki dövlət"i rəsmiləşdirən Azərbaycan və Türkiyə liderləri arasında müttəfiqlik münasibətləri haqqında tarixi hadisə olan Şuşa Bəyannamənin imzalanmasından iki il ötür. Bəli, Müttəfiqlik haqqında Bəyannamə təqdimatı hər şeyi deyir. Belə ki, məhz Azərbaycan xalqının Qurtuluş günü - 15 iyun tarixi və Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümündə imzalanan Şuşa Bəyannaməsi bütün dünyanın barışmalı olduğu Bəyannamədir.

Təsadüfi deyil ki, Şuşada Türkiyə lideri ilə Bəyannamə imzalayarkən Azərbaycan Prezidenti İlham Əliyev hər kəsin yadına Qars müqaviləsini salaraq bildirmişdir: "Tarixi Qars müqaviləsi düz yüz il əvvəl imzalanıb. Bu da böyük rəmzi məna daşıyır. Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir. Bəyannamədə bir çox önəmli məsələlər öz əksini tapır. Beynəlxalq müstəvidə birgə əməkdaşlıq, fəaliyyətimiz, siyasi əlaqələr, iqtisadi-ticarət əlaqələri, mədəniyyət, təhsil, idman, gənclər siyasəti, demək olar ki, bütün sahələr əhatə olunur. Cənub Qaz Dəhlizinin Türkiyə, Azərbaycan, dünya üçün önəmi göstərilir. Hər bir məsələ çox böyük önəm daşıyır".

Təbii ki, Prezident İlham Əliyevin Qars müqaviləsinə və 100 il bundan əvvəl baş verənlərə istinad etməsi təsadüfi deyil. Çünki 100 il bundan əvvəl baş tutan proseslərə oxşar hallar, indi də təkrarlanmaqdadır. Sadəcə bir fərq ilə. Əgər o zaman hadisələrin nəticəsi Ermənistanın və onun havadarlarının xeyirinə başa çatmışdısa, bu gün də Cənubi Qafqazda yaranmış yeni reallıq Azərbaycan dövlətinin və xalqının birbaşa qalibiyyəti deməkdir. Ölkəmizin başçısının apardığı uzaqgörən siyasət nəticəsində xalqımız düz 100 il sonra tarixi ədaləti bərpa etdi.

### PREZİDENT İLHAM ƏLİYEV VƏ PREZİDENT RƏCƏB TAYYİB ƏRDOĞAN TƏRƏFİNDƏN İMZALANMIŞ ŞUŞA BƏYANNAMƏSİ BÜTÜN DÜNYANIN BARIŞMALI OLDUĞU TARİXİ GERÇƏKLİKDİR

Bəli, bu gün dövlət başçımızın söylədiyi kimi: "Yüz ildən sonra azad edilmiş Şuşa şəhərində müttəfiqlik haqqında imzalanmış birgə bəyannamə bizim gələcək işbirliyimizin istiqamətini göstərir". Xüsusilə də, Şuşa Bəyannaməsinin imzalanması və bu sənədin hər iki ölkənin parlamentində təsdiqlənməsi ilə Azərbaycan-Türkiyə qardaşlıq və dostluq münasibətlərinin müttəfiqlik əsasında daha da inkişaf etdiyinin göstəricisidir. Bu qardaşlıq və dostluq münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanan qardaşlıq birliyidir.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Müstəqillik Günü münasibətilə dövlətimizin başçısını və Azərbaycan xalqını təbrik məktubunda bir daha Şuşa Bəyannaməsinin iki qardaş ölkələrin arasında bu birliyin daha da möhkəm olacağının söyləyib: "Özündə dərin məna ehtiva edən bu gündə Azərbaycan xalqının haqlı qürurunu və sevincini ürəkdən bölüşürük".

Məktubda o da vurğulanır ki, "Bir millət, iki dövlət" şüarı ilə birlikdə imzaladığımız Şuşa Bəyannaməsi ilə daha da möhkəmləndirdiyimiz bənzərsiz münasibətlərimiz indiyədək olduğu kimi, gələcəkdə də ölkələrimizin və regionumuzun sülh və sabitliyinin ən böyük təminatı olacaq.

Prezident İlham Əliyev ötən il oktyabrın 26-da Zəngilanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla mətbuata birgə bəyanatla çıxış edən zaman deyib: "Sizin səferinizin çox böyük önəmi var. Siz ikinci dəfədir ki, işğaldan azad edilmiş torpaqlara səfər edirsiniz. Dörd ay bundan əvvəl sizinlə bərabər Şuşa şəhərində olmuşuq. Bu gün isə Füzulidə və Zəngilandayıq. Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi tarixi sənəddir. Bu bəyannamə bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Bu gün Füzuli Beynəlxalq Hava Limanının açılışında birlikdə iştirakımız bir daha bizim birliyimizi göstərir, gücümüzü göstərir. Onu göstərir ki, Türkiyə və Azərbaycan iki qardaş ölkə kimi hər zaman bir-birinin yanındadır".

Bəli, hər iki ölkə liderləri - Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi bütün dünyanın barışmalı olduğu tarixi gerçəklikdir. Hər iki ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinə, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən saziş Bakı və Ankaranın başçılığı altında yeni regional geosiyasi konfiqurasiyanın qurulmasının başlanğıcıdır. Bu, regionda 200 ilə yaxın davam edən geosiyasi konfiqurasiyaların dağıdılması və bundan sonra Azərbaycan-Türkiyə tandeminin rəhbərliyi altında davam edəcək yeni regional düzənin başlanğıcı deməkdir. Şuşa Bəyannaməsi Türkiyə ilə Azərbaycanın birgə maraqlarının qorunması üçün hər iki ölkənin bütün imkanlarından istifadə etməyə imkan verən rəsmi sənəddir. İstər Türkiyəyə qarşı, istərsə də Azərbaycana qarşı üçüncü ölkə və yaxud ölkələr tərəfindən təhdidlər və yaxud birbaşa hücum olarsa iki ölkənin bütün imkanları səfərbər ediləcək və işğalçıya qarşı birgə mübarizə aparacaqlar.

### TÜRKİYƏ XALQINA, HƏM DƏ BÜTÜN DÜNYAYA BİR MESAJ: "BİZ BİR YERDƏYİK. BİZİM BİRLİYİMİZ SARSILMAZDIR VƏ ƏBƏDİDİR"

Bəli, bu gün Türkiyə və Azərbaycan liderlərinin görüşləri iki dövlətin sarsılmaz birliyinin əyani təzahürüdür. Azərbaycan Prezidenti İlham Əliyev Zəngilanda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla mətbuata birgə bəyanatla çıxışı zamanı bildirmişdir ki, bu gün regional işlərdə, hətta dünya miqyasında Türkiyə və Azərbaycan birliyi, qardaşlığı önəmli faktora çevrilib: "Bu, əsl qardaşlıq nümunəsidir, əsl dostluq nümunəsidir. Həm Azərbaycan xalqına, həm Türkiyə xalqına, həm də bütün dünyaya bir mesajdır ki, biz bir yerdəyik. Bizim birliyimiz sarsılmazdır və əbədidir".

Çünki Azərbaycan və Türkiyə münasibətləri maraqlara deyil, dəyərlərə əsaslanır. Və bu bütün dünya üçün bir nümunədir. Öz maraqları üçün min oyunlar oynayan, hər cür addımlara gedən, mənəviyyatsızlıqları sərhəd tanımayan xarici siyasi dairələr qarşısına Azərbaycan və Türkiyə Prezidentləri bu dəyərlərin gücü ilə çıxırlar. Onlara öz yerlərini göstərirlər. Bu iki liderin uca şəxsiyyətinə, mənliyinə, mənəviyyatına, dəyərlərə bağlılığına yaraşan da elə məhz budur!

### TÜRKİYƏ PREZİDENTİ: "ŞUŞA BƏYANNAMƏSİ İLƏ ƏLAQƏLƏRİMİZDƏ YENİ BİR DÖNƏM BAŞLATDIQ"

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə və Azərbaycan arasında imzalanmış Şuşa Bəyannaməsi ilə iki ölkə arasındakı əlaqələrdə yeni dönəmin başlandığını söyləmişdi: "Qarabağa yenidən həyat verməklə yanaşı, azərbaycanlı qardaşlarımızın bir daha bu cür fəlakətlər yaşamaması üçün bir millət, iki dövlət ruhuna uyğun şəkildə tədbirlərimizi alırıq. Qardaşım Əliyevlə birlikdə imzaladığımız və dünyaya elan etdiyimiz Şuşa Bəyannaməsi ilə əlaqələrimizdə yeni bir dönəm başlatdıq. Bu bəyannamə çərçivəsində bir çox anlaşmanı çox yaxın zamanda Türkiyə və Azərbaycan olaraq imza altına alacaq, beləcə qardaşlığımızın hüquqi təməlini daha da gücləndirəcəyik. Şuşa Baş Konsulluğumuzun ən qısa müddətdə açılmasından Zəngəzur dəhlizinin bir an öncə işləməsinə qədər gündəmimizdəki hər bir başlığı qərarlılıqla və sürətlə həyata keçirəcəyik. Önümüzdəki aylarda ölkəmizdə gerçəkləşdirəcəyimiz Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının iclasında bu xüsuslarla əlaqəli konkret addımların çoxunu atmağı planlaşdırırıq".

Bir sözlə, Şuşa Bəyannaməsinin imzalanması ilə iki ölkə arasındakı əlaqələri tarixi maksimuma çatdıraraq bütün dünyaya iki ölkənin qardaşlığı ilə bağlı mesaj verilməsi baxımından da əlamətdar oldu: Belə ki, Türkiyə 44 günlük müharibə dövründə olduğu kimi sonrasında da, yəni Qarabağın dirçəldilməsi, bölgədə bütün kommunikasiyaların açılması və s. məsələlərdə də Azərbaycanı birmənalı olaraq dəstəkləyir və bundan sonra da qeyd-şərtsiz dəstəkləməyə davam edəcək. Artıq reallıqla barışmaq və gələcəyə baxmaq lazımdır. Və Şuşa Bəyannaməsi hər şeydən öncə iki qardaş ölkə arasında münasibətlərin gələcəyini müəyyən edən yol xəritəsi kimi də tarixə düşəcək. Ən əsası, bu Ermənistanda revanşizmin və Qars müqaviləsinin ləğvi barədə iddiaların səsləndirildiyi, bəzi dövlətlərin regionda yenidən qarışıqlıq yaratmaq istədikləri bir zamanda Şuşa Bəyannaməsinin imzalanması düşmənlərimizə göz dağı verməklə yanaşı həm də Azərbaycanın gücünün, qüdrətinin nə qədər böyük olduğunu bir daha göstərdi.

***RƏFİQƏ KAMALQIZI***

# Bəşəriyyətin, indi də təbiətin düşməni - ERMƏNİSTAN

Dünyada nə qədər çirkli, məkrli, oyunlar qurulursa onun altından ermənilər çıxır. Bəşəriyyətin lənətlədiyi hadisələrdə də erməni imzasını görməyə artıq adət etmişik. Biri var kimsə kiminsə əməlinə terror damğası vursun, biri də var görülən işin adı terror olsun. Başqasının torpağını "günün günorta çağı" ələ keçirib, sonra isə buna "azadlıq", "müstəqillik" adını qoymaq ənənəsi də "hay"lardan gəlir. Həm də bu hərəkətlərindən heç də utanmırlar, yanlış hərəkətlərinə "doğru" möhürünü vuraraq haqlı kimi davranırlar. Sanki dünyanı ovsunlayırlar, heç bir dövlətin səsi də çıxmır. Belə olmasaydı 30 il Azərbaycan torpaqlarını işğaldan saxlayan, insanlarını öldürən, əsir-yesir edən, yurdundan-yuvasından zorla qovan Ermənistan adlı terror dövlətinin dərsi vaxtında verilərdi, ya da hansısa beynəlxalq təşkilatdan əsl qulaqburması alardı. Ancaq bunların heç biri olmadı, ta ki Azərbaycan torpaqlarını azad etmək üçün ayağa qalxmayana, ermənilərə əsl dərs verməyənə, dəmir yumruğu başına endirməyənə qədər.

Bu gün terrorda yenə Ermənistanın adı hallanır. Bu dəfə də adəti üzrə, yenə ekoloji terrorda. Məlumdur ki, sənaye fəaliyyəti ölkə iqtisadiyyatının inkişafında böyük rol oynayır. Lakin bu sahənin inkişafının həm də bəşəriyyət fəlakətli olduğundan da xəbərdarıq. Ekoloji problemlər daha çox fəlakətə səbəb olacaq. Ermənistan ABŞ şirkəti ilə birgə Naxçıvanın Sədərək rayonuna bitişik Arazdəyən kəndində iri metallurgiya zavodunu inşa etməyə hazırlaşır. Tikintiyə 70 milyon dollar ABŞ sərmayəsi yatırılacaq, zavodun hündürlüyü 30 m, sahəsi 16 500 kvadratmetr olacaq. Bu xəbər hər kəsdə narahatlıq yaradıb, havanın daha dözümsüz hala gələcəyini də indidən proqnozlaşdırmaq olar. Bu metallurgiya zavodunun zəhərli kimyəvi tullantıları bölgədəki ekosistemə böyük zərbə vura bilər. Onun tullantılarının Araz çayına axıdılması riski həm çaydakı canlı aləm, həm də Arazın suyundan suvarma üçün istifadə edilən geniş təsərrüfatlar üçün həyəcan siqnalıdır. Ermənistanın dağ-mədən sənayesində heç bir beynəlxalq standartlara əməl edilməməsi həm Azərbaycan, həm də ümumilikdə bölgə üçün ciddi ekoloji təhdid yaradır.



Bununla bağlı Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatları həyəcan təbili çalmağa başlayıblar. QHT-lərin Ermənistanın Arazdəyəndə yeni ekoloji fəlakətə yol açacaq layihəsi əleyhinə bəyanat yaymaları da təsadüfi deyil: "Azərbaycan tərəfi ilə razılaşdırmadan sərhəddə belə bir müəssisənin tikintisi "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" 1991-ci il Espo Konvensiyanın kobud şəkildə pozulmasıdır. Azərbaycan və Ermənistan həmin Konvensiyanın tərəfləridir və Espo Konvensiyasından irəli gələrək, bu zavodun ətraf mühitə təsirinin qiymətləndirilməsi işi aparılmalı, tikinti ilə əlaqədar qiymətləndirmə sənədinə qonşu dövlət olan Azərbaycanın müvafiq qurumları baxmalı, eyni zamanda bölgəyə yaxın yaşayan azərbaycanlıların rəyi nəzərə alınmalıdır".



## Ekoloji terror və ekosid siyasəti

Ermənistanın bu tələblərə riayət etməməsi bir daha onu göstərir ki, Ermənistan regionda destruktiv siyasət aparır, tərəf olduğu beynəlxalq sənədlərin müddəalarını, beynəlxalq öhdəliklərini kobud şəkildə pozur. Bəyanatda daha sonra deyilir: "Ermənistan tərəfindən Azərbaycana qarşı ekoloji terror və ekosid siyasətinin aparılması yenilik deyil. "Metsamor"un uzun illər regionun ətraf mühitinə təhdid kimi qalması, işğal dövründə Qarabağda törədilmiş geniş miqyaslı ekoloji faciələr, yüksək kimyəvi tərkibli istehsalat sularının təmizlənmədən Oxçuçaya axıdılması buna əyani misaldır. Ermənistan Oxçuçayı kəskin şəkildə çirkləndirib. Bu isə çayın Azərbaycan ərazisi boyu keçdiyi hissənin ekoloji sistemini bərpa olunmaz deqradasiyaya məruz qoyub. Alman şirkəti "Cronimet" bu ekoloji cinayətdə Ermənistanla birgə iştirak edib. Təəssüflər olsun ki, bu günə qədər də Almaniya hökuməti bu istiqamətdə heç bir praktik addım atmayıb.

Törətdiyi ekoloji cinayətlərlə Ermənistan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin, xüsusilə də hər kəsin sağlamlığının təmin edilməsinə dair 3-cü, təmiz su və sanitariya ilə bağlı 6-cı, iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə dair 13-cü, torpaq ekosisteminin mühafizəsi üzrə 15-ci məqsədlərinin tamamilə əleyhinə gedir".

2022-ci ildə BMT təmiz, sağlam və davamlı ətraf mühiti insan hüququ kimi tanıyıb. Ermənistan ekologiyaya ciddi ziyan vurmaqla, Azərbaycan, o cümlədən region əhalisinin insan hüquqlarını kobud şəkildə pozur. Müxtəlif beynəlxalq sənədlər, o cümlədən biznes və insan hüquqları üzrə rəhbər prinsiplərə görə iqtisadi fəaliyyət insan hüquqlarına ziyan vurulmadan həyata keçirilməlidir. Bu halda da Ermənistan məsuliyyətsiz davranır, təmiz, sağlam və davamlı ətraf mühit hüququna məhəl qoymur və sırf özünün iqtisadi maraqlarını önə çəkir.

Bəyanatın müəllifləri Amerika Birləşmiş Ştatları hökumətinə də müraciət ediblər. Ki, Arazdəyəndə iri metallurgiya zavodu tikməyə hazırlaşan, ərazisində qeydiyyatda olan şirkəti məsuliyyətli davranışa dəvət etsin, onun qanunsuzluqlarına göz yummasın. Amerika Birləşmiş Ştatları rəsmiləri, o cümlədən Azərbaycandakı və Ermənistandakı ABŞ səfirlikləri susmamalı, məsələyə münasibət bildirməlidirlər. Ermənistandakı ekofəallar da passivlik göstərməməlidirlər, ekoloji terror indiki Ermənistan ərazilərində də fəlakətlər yaşada bilər.

Əslində bəyanatların Ermənistana təsirsiz qalacağı indidən məlumdur. Bu dövlətin özünə və insanlarına etibar etmək olmaz. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mütəxəssisləri də inkar etmirlər ki, zavod işə düşdükdən sonra "tullantılar necə utilizasiya olunacaq", "maye halında çaylara axıdılacaqmı", kimi sualların cavabları açıqdır. Çünki Ermənistan su mənbələri ilə bağlı beynəlxalq sənədlərin heç birini imzalamayıb. Tullantılar Azərbaycan ərazisinə axıdıla bilər. Bu fəsadlar bizə ziyan vuracaq. Buna hazır olmaq lazımdır. Belə olan halda ekosistemin qorunması ilə bağlı iddia qaldıra bilərik. Bu məsələ ilə məşğul olmaq lazımdır.

Məlumat üçün bildirək ki, Araz çayının bir qolu olan "Şir Arxı" da dəfələrlə ermənilər tərəfindən çirkləndirilib. Bu sərhəddə yerləşən Sədərəkdə mal-qaranın və əkinlərin məhvinə, insanların ciddi xəstəliklərlə üzləşməsinə gətirib çıxara bilər. Çünki "Şir Arxı"nın suyundan təsərrüfatlarda da istifadə edilir. Qeyd edək ki, Araz çayı, sözün əsl mənasında, Ermənistanın dağ-mədən sənayesi müəssisələrinin kollektoruna çevrilib. Hər il Ermənistan ərazisindən keçən 350 milyon kubmetr su kimyəvi maddələrlə çirkləndirilir. Yeni zavodun inşası ilə Ermənistan həm də növbəti təxribatını törədir.

*Ardı Səh. 4*

Əvvəli Səh.3

## Maraqlı sual



Ermənistana bu zavod nə üçün lazımdır? Məsələyə bir az dərindən yanaşsaq, Ermənistan bundan heç bir iqtisadi dividend qazanmaq niyyətində deyil. Son zamanlar Zəngəzur dəhlizi məsələsi tez-tez müzakirə olunur. Ermənistanın bunu inkar etməsi, layihəyə mane olması sadəcə mümkün deyil, buna heç gücü də yetməz. Əslində hər bir erməniyə də məlumdur ki, dəhlizin onlara daha çox xeyiri dəyəcək. Ancaq Azərbaycanı, yaxud Türkiyənin bu layihədən faydalanacağı dərdi erməniləri sakit buraxmır. Onlar bütün imkanları ilə bu dəhlizin işə düşməməsinə, metaləritmə zavodu məsələsini ortaya ataraq qarşı tərəfdə narazılıq yaratmağa çalışırlar. O da məlumdur ki, Arazdəyən Zəngəzur dəhlizinin əsas, vacib bir hissəsidir. Bir neçə gün öncə Moskvada Azərbaycan, Ermənistan və Rusiya baş nazirlərinin müavinləri arasında keçirilən İşçi Qrupunun 12-ci iclasında Arazdəyən-Culfa-Mehri-Horadiz dəmiryolunun bərpası üzrə ümumi anlaşma əldə olunduqdan sonra zavod mövzusunun ortaya atılması təsadüfi sayılmamalıdır. Bu zavodu inşa etməklə Ermənistanın digər və ən təhlükəli planı isə Azərbaycanın Naxçıvan əhalisinə qarşı ekoloji terroru sürətləndirmək, insanları zəhərləmək məqsədi daşıyır. Ermənistan bundan əvvəl də eyni təxribatlara, terrorlara əl atıb. 30 il ərzində torpaqlarımızı işğal altında saxlayan bu qondarma ölkə Azərbaycan xalqına və dövlətinə qarşı törətdiyi cinayətlərləri bu gün də davam etdirir. Həm də bu cinayətlər təkcə insanlara qarşı deyil, eyni zamanda, torpağa, təbiətə, meşələrə, təbii sərvətlərimizə qarşıdır.

Ermənistan 44 günlük müharibədə məğlub olub, amma terrorçu, işğalçı, talançı siyasətini hələ də davam etdirir. Ərazilərimizdə basdırılan on minlərlə minaları da unutmamalıyıq. Bir müddət əvvəl Metsamor Atom Elektrik Stansiyasının ərazisində yeni nüvə reaktorunun tikintisi planları ilə əlaqədar Azərbaycan Espo Konvensiyası çərçivəsində Ermənistana qarşı iddia irəli sürüb və Ermənistanın Konvensiyanın müddəalarına əməl etmədiyi barədə qərar çıxarılıb. Ermənistanın iri mədən müəssisələri-Qacaran mis-molibden zavodu və Qafan filiz emalı kombinatının yüksək kimyəvi tərkibli istehsalat suları uzun müddətdir ki, transsərhəd Oxçuçayı intensiv şəkildə çirkləndirir. Bu gün Arazdəyəndə ABŞ sərmayəsi ilə iri metallurgiya zavodu inşa etməyə hazırlaşmasının da adı terrordur.



Hazırda dünyanın bir çox nöqtəsində müharibə gedir. Kimyəvi zərərverici maddələrdən istifadə edib torpaqlar şumlanılır, bitkilərin tərkibinə yeni bioloji maddələr əlavə edilir. Bütün bunlar təbiətə böyük ziyan vurur. Müharibə bölgədə çayların qurumasına və bitki örtüyünün məhvinə səbəb ola bilməz. Mərmi düşür və partlayır, burada bir ağaca ziyan dəyirsə, bu, bütün ağacların məhv olması demək deyil. Təbiətin məhv olması üçün isə ozon təbəqəsi zədələnməlidir. Bu zaman tək bir ölkə deyil, bütün dünya ziyan görür. Buna isə heç bir dövlət imkan verməməlidir. Gələcəyə daha gözəl Azərbaycan bəxş etmək üçün hamılıqla mübarizə aparmalıyıq. İnanırıq ki, Qarabağdakı bütün landşaft komponentləri, təbii sərvətlərimiz müasir texnologiya əsasında işlənəcək. Meşələrimiz, çaylarımız, bağlarımız yenidən bərpa olunacaq. Qarabağ hər zaman zəngin təbiəti, bağları və iqlimi ilə göz oxşayıb.

## Statistika nə deyir?

1988-94-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın 1,7 milyon hektar ərazisi işğal olunmuşdu. Bu ərazilərdə 460 növdən çox yabanı ağac və kol bitkiləri bitir. Bunlardan 70-i endemik növ olub, dünyanın heç bir yerində təbii halda bitmir. Qaracöhrə, ayıfındığı, Araz palıdı, yalanqoz, şərq çinarı, adi nar, meşə üzümü, pirkal, şümşəd, eldar şamı, adi xurma, söyüdyarpaq armud və s. növ ağaclar işğal olunmuş ərazidə məhv edilərək dünya florasının xəzinəsindən silinmək üzrədir.

Bəsitçay Dövlət Təbiət Qoruğu, Arazboyu Dövlət Təbiət yasaqlığı, Qaragöl Dövlət Təbiət Qoruğu, Laçın rayon Dövlət Təbiət yasaqlığı, Qubadlı rayon Dövlət Təbiət yasaqlığı və Daşaltı Dövlət Təbiət yasaqlığının ərazilərində olan qiymətli ağac və biomüxtəlifliyin digər növləri işğal dövründə ermənilər tərəfindən talan edilib. İşğal olunmuş rayonlarda 247352 hektar meşə sahəsi, o cümlədən 13197,5 ha qiymətli meşə sahələri, 152 ədəd təbiət abidəsi və 5 ədəd geoloji obyekt qalıb. Ermənilər böyük əhəmiyyətə malik olan bu təbiət abidələrinin əksəriyyətini məhv ediblər. Qiymətli ağac növlərindən ibarət 986 hektar dövlət meşə sahəsi, 710 hektar kolxoz meşələri, 560 hektar yol, su, kanal kənarı, mədəni meşələr işğal altında qalıb, ərazidə törədilən yanğınlar nəticəsində bölgənin flora və faunasına ciddi ziyan dəyib. Ağdam şəhərində yaşı 150-250 ilədək olan 6 ədəd, Şelli, Seyidli, Sarıhacılı, Əliağalı kəndlərində yaşı 200-250 il olan 8 ədəd, Boyəhmədli kəndi ətrafında yaşı 400 ilə çatan 71 ədəd təbiət abidəsi kimi qorunan, pasportlaşdırılmış Şərq çinarları məhv edilib.

Avropada yeganə təbii çinar meşəsi Kiçik Qafqazın qərb hissəsində - Zəngilan rayonundadır. Bəsitçay vadisində 117 hektar sahəni əhatə edir. Onun 107 hektarı Bəsitçay Dövlət təbiət qoruğuna məxsusdur. Qoruq 1974-cü ildə mərhum akademik Həsən Əliyevin təşəbbüsü ilə yaradılıb. Meşənin uzunluğu 15 km, eni isə 150-200 metrə çatır. Təəssüf ki, əsrlərin yadigarı olan çinar ağacları ermənilər tərəfindən qırılıb və məhv edilib.

Bu arada maraqlı bir xəbəri, daha doğrusu ermənilərin tülkü xislətini bird aha dəyərli oxucuların diqqətinə çatdırmaqda fayda var, deyə düşünürük. Rusiya BMT-nin 29-cu iqlim sammitinin COP29-un Aİ ölkələrində keçirilməsinə mane olmağa çalışır. Bundan istifadə edən fürsətcil Ermənistan sammitə ev sahibliyi etmək üçün ərizə verib. Əgər Arazdəyən metallurgiya zavodunun tikintisinə hazırlaşan ölkənin Ermənistan olmadığı üzə çıxsaydı, İrəvanın təşəbbüsünü belə qeyri-adi qarşılamazdır. Ermənistan isə bir tərəfdən təbiətə, ekologiyaya qarşı terror aktı törədir və sabah da törətməyə hazırlaşır, digər tərəfdən də iqlim problemlərini müzakirə etmək üçün sammitə evsahibliyi etmək üçün ərizə verir. Paradokslarla doludur, ya da ağlını itirib bu ölkə.

***V.VƏLİYEV***

## Ermənistan ekoloji terroru dərhal dayandırmalıdır



"Ermənistanın adı bu gün də ekoloji terrorda hallanır. Bu da səbəbsiz, heç təsadüf də deyil. Sənaye fəaliyyəti ölkə iqtisadiyyatının inkişafında böyük rol oynayır. Lakin bu sahə inkişafı ilə bəşəriyyətə fəlakət gətirəcəksə, onu tətbiq edən ölkə bunu dərhal dayandırmalıdır, əks təqdirdə qanunlar qarşısında cavab verməli olacaq. Ermənistan ABŞ şirkəti ilə birgə Naxçıvanın Sədərək rayonuna bitişik Arazdəyən kəndində iri metallurgiya zavodunu inşa etməyə hazırlaşır. Tikintiyə 70 milyon dollar ABŞ sərmayəsi yatırılacaq, zavodun hündürlüyünün 30 m, sahəsinin isə 16 500 kvadratmetr olacağı deyilir. Yeni bu, çox iri bir zavod olacaq. Ona görə də hər kəsdə narahatlıq yaradıb, havanın daha dözümsüz hala gələcəyini də indidən proqnozlaşdırmaq olar. Bu metallurgiya zavodunun zəhərli kimyəvi tullantıları bölgədəki ekosistemə böyük zərər vuracağını indidən demək olar. Onun tullantılarının Araz çayına axıdılması riski həm çaydakı canlı aləm, həm də Arazın suyundan suvarma üçün istifadə edilən geniş təsərrüfatlar üçün həyəcan siqnalıdır". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.

Deputat qeyd edib ki, Ermənistanın dağ-mədən sənayesində heç bir beynəlxalq standartlara əməl edilməməsi həm Azərbaycan, həm də ümumilikdə bölgə üçün ciddi ekoloji təhdid yaradır: "Bu "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" 1991-ci il Espo Konvensiyanın kobud şəkildə pozulmasıdır. Azərbaycan və Ermənistan həmin Konvensiyanın tərəfləridir və Espo Konvensiyasından irəli gələrək, bu zavodun ətraf mühitə təsirinin qiymətləndirilməsi işi aparılmalı, tikinti ilə əlaqədar qiymətləndirmə sənədinə qonşu dövlət olan Azərbaycanın müvafiq qurumları baxmalı, eyni zamanda bölgəyə yaxın yaşayan azərbaycanlıların rəyi nəzərə alınmalıdır. Bu, bir daha onu göstərir ki, Ermənistan regionda destruktiv siyasət aparır, tərəf olduğu beynəlxalq sənədlərin müddəalarını, beynəlxalq öhdəliklərini kobud şəkildə pozur. "Metsamor"un uzun illər regionun ətraf mühitinə təhdidi, işğal dövründə Qarabağda törədilmiş geniş miqyaslı ekoloji faciələr, yüksək kimyəvi tərkibli istehsalat sularının təmizlənmədən Oxçuçaya axıdılması buna əyani misaldır. Törətdiyi ekoloji cinayətlərlə Ermənistan BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin, xüsusilə də hər kəsin sağlamlığının təmin edilməsinə dair 3-cü, təmiz su və sanitariya ilə bağlı 6-cı, iqlim dəyişikliyinin fəsadlarına qarşı mübarizəyə dair 13-cü, torpaq ekosisteminin mühafizəsi üzrə 15-ci məqsədlərinin tamamilə əleyhinə gedir".

***Səbinə Hüseynli***

## "Azərbaycanda idmanın beynəlxalq səviyyədə inkişafını görürük"




"Biz cənab Qayıbovla uzun vaxtdır ki, dostluq edirik. Düşünürəm ki, Avropa Gimnastika Federasiyasının prezidenti kimi möhtəşəm nəticələrə imza atıb. Bizim həmişə gələcəklə bağlı müzakirə etdiyimiz maraqlı mövzular olur". SİA xəbər verir ki, bu barədə Azərbaycanda səfərdə olan Avropa Olimpiya Komitələrinin prezidenti Spiros Kapralos jurnalistlərə açıqlamasında bildirib.

O, sözlərinə belə davam edib: "Həmçinin, 2015-ci ildə tikilmiş və o vaxtdan bəri istifadəyə verilmiş obyektlərin necə istifadə edildiyini görmək istəyirik. Birinci Avropa Oyunları zamanı tikilmiş bu yerlərin maksimum dərədəcə istifadə edildiyini görməkdən çox məmnunuq. Azərbaycanda idmanın beynəlxalq səviyyədə inkişafını görürük. Məsələn, elə ötən həftə keçirilmiş dünya taekvando çempionatını misal göstərək. Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Baxın da iştirak etdiyi uğurlu tədbirlərdən biri idi".

***Ayşən Vəli***

# 9 iyun - xalqımızı nicata aparan tarixi gün!



Xalqın qürur və iftixar mənbəyi olan dünyaşöhrətli siyasətçi və dövlət xadimi Heydər Əliyev yorulmaz fəaliyyəti, qətiyyəti, siyasi bacarığı, Azərbaycana böyük sevgisi ilə ölkənin uğurlu gələcəyinin təməlini qoydu. Beynəlxalq miqyasda etibarlı tərəfdaş, demokratik ölkə kimi tanınan müstəqil Azərbaycanın keçdiyi uğurlu inkişaf yolu Ulu Öndər Heydər Əliyevin uğurlu siyasətinin məntiqi nəticəsidir. Azərbaycanın müstəqil dövlət kimi təbii sərvətlərinə sahib çıxması, milli mənafeyini, iqtisadi və strateji maraqlarını müdafiə etmək gücünə malik olması, məhz Ümummilli Lider Heydər Əliyevin müdrik siyasətindən qaynaqlanıb. Bütün həyatını Azərbaycanın və xalqın taleyi ilə bağlayan Ulu Öndər Heydər Əliyev müstəqil dövlətimizin tarixini yaradıb. Azərbaycanı, Azərbaycan xalqını böyük bəladan, dəhşətli fəlakətdən Ulu Öndər Heydər Əliyev fenomeni, cəsarəti və müdrikliyi qoruyub-saxlayıb. Ulu Öndər Heydər Əliyevin fəaliyyəti, iradəsi və xalqa arxalanması, xalqın da öz Müdrik Liderinə güvənməsi və geniş xalq məhəbbəti vəhdətdə birləşdiyindən, Azərbaycan dövlətçiliyi məhvolma təhlükəsindən xilas oldu.

Əlbəttə ki, bu gün müstəqil dövlətimizin uğurlarından qürurla söz açarkən, bu nailiyyətlərin təməlinin qoyulduğu zamanın - Azərbaycan tarixinin silinməz salnaməsi olduğunu qeyd etməliyik. Tarixin silinməz zamanına çevrilən həmin məqamlar müstəqil dövlətimizi təhlükələrdən xilas etdi və bugünki dünyada nüfuz qazanmış müstəqil Azərbaycanın adını zirvələrə yüksəltdi. Xalqımızı nicata aparan yol - 1993-cü ilin 9 iyun tarixində başlanmışdır. Həmin tarixdən 30 illik bir zaman ötür. Həmin gün Ulu Öndər Heydər Əliyev Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpa edilməsi və milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində çox mühüm bir addım atmışdı. Məlumdur ki, 1990-cı ilin Qanlı 20 Yanvar hadisələrindən sonra Ulu Öndər Heydər Əliyevin Moskvadan Azərbaycana qayıtması, Azərbaycan SSR Ali Sovetinə və Naxçıvan Ali Məclisinə deputat seçilməsi, artıq bu mübarizə alovunu gücləndirdi və Müdrik Siyasətçinin uzaqgörən siyasəti xalqın buxovlanmış arzularının yolunda ümid çırağı yandırmış oldu. Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə 1990-cı il noyabrın 17-də Naxçıvan Ali Məclisinin iclasında muxtar respublikanın adından "sovet sosialist" sözlərinin götürülməsi, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağının dövlət bayrağı kimi qəbul edilməsi və bu barədə Azərbaycan Parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılması haqqında tarixi qərarlar qəbul edildi. Naxçıvanda həyata keçirilən demokratik tədbirlər bütün Azərbaycana nümunə oldu. 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası demokratik qüvvələrin tələbi ilə bir sıra tarixi qərarlar qəbul edildi. Dövlətin adı dəyişdirilərək "Azərbaycan Respublikası" adlandırıldı, Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi təsdiq olundu. 1991-ci il avqustun 26-dan Naxçıvan Muxtar Respublikası ərazisində Azərbaycan KP-nin fəaliyyəti dayandırıldı və onun bütün strukturları ləğv edildi.

## VƏTƏNİN XİLASI VƏ XALQIN QURTULUŞU

Ali Sovetin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə qəbul etdi. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin Sessiyasında tarixi sənəd qəbul edildi. Amma Azərbaycan müstəqillik əldə etmiş olsa da, ölkədə hökm sürən ictimai-siyasi proseslər ölkəni məhv olmaq təhlükəsi ilə üz-üzə qoymuşdu. O dövrdə siyasi hakimiyyətdə olanların səriştəsizliyi üzündən vətəndaş müharibəsinə rəvac verildi, milli dövlətçiliyimiz ikinci dəfə məhv olmağın bir addımlığına gətirildi. Belə bir zamanda, xalq milli dövlətçiliyi qorumaq və vətəndaş müharibəsinin ağır fəsadlarından qurtulmaq üçün Ümummilli Lider Heydər Əliyevi Naxçıvandan Bakıya dəvət etdi. Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 9-da Naxçıvandan Bakıya gəldi. Ulu Öndərin bu qayıdışı Vətənin xilası və xalqın qurtuluşu idi. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçildi. Bu gün tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclisin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi. Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycanın siyasi hakimiyyətinə gəlməsəydi, indi nə Azərbaycandan, nə də ölkəmizdəki bugünki əmin-amanlıqdan və inkişafdan danışmaq olmazdı.

## "AZƏRBAYCAN XALQI AZADLIĞINI ƏLDƏ ETMİŞ XALQ KİMİ YAŞAYACAQ"

Sonrakı hadisələrin gedişində ölkədə nisbətən sabitlik yarandı və oktyabrın 3-də Ulu Öndər Heydər Əliyev xalqımızın böyük əksəriyyəti tərəfindən ölkə Prezidenti seçildi. 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışı ilə Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyev Özü ilə bərabər Azərbaycana siyasi müdriklik gətirdi. "Əgər respublikada ictimai-siyasi sabitlik olmasa, sağlam ictimai-siyasi mühit olmasa, heç bir sosial-iqtisadi proqramdan, yaxud problemlərin həll edilməsindən söhbət gedə bilməz",- deyirdi Heydər Əliyev. Məhz Ümummilli Liderin zəngin siyasi təcrübəsi və yüksək idarəçilik bacarığı vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu Öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi-siyasi və mənəvi-psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Ümummilli Lider Heydər Əliyev "Müstəqilliyin qoruması onu əldə etməkdən qat-qat çətindir" məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı. Müstəqilliyin əvəzsiz nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Ulu Öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi: "Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır", - deyən Dahi Öndər Heydər Əliyevin müəllifi olduğu 1994-cü ilin 20 sentyabrında nəhəng neft müqaviləsi - "Əsrin müqaviləsi" imzalandı. "Əsrin Müqaviləsi"nin imzalanması milli iqtisadi inkişafın təməlini qoydu. Azərbaycanın "Əsrin Müqaviləsi"ndən başlanan yolu haqqında Ümummilli Lider Heydər Əliyev belə deyib: "1994-cü ildən Azərbaycan dövləti özünün yeni neft strategiyasını həyata keçirir və bu strategiyasının da əsas mənası, əsas prinsipləri Azərbaycanın zəngin təbii sərvətlərindən, o cümlədən, neft və qaz sərvətlərindən Azərbaycan xalqının rifahı naminə daha səmərəli istifadə etməkdən ibarətdir".

"Əsrin Müqaviləsi"nin tərəfdaşı olan ölkələrin, demək olar ki, hər biri dünyada böyük nüfuza və gücə malik ölkə idi. Həmin dövr üçün bu ölkələrin Azərbaycanın tərəfdaşına çevrilmələri təhlükəsizliyimizin təminatına səbəb olan amillərdəndir. Bu müqavilə Azərbaycanın dövlət təhlükəsizliyinin təminatçısına çevrildi. Nəinki regionda, qlobal miqyasda nəhəng neft kəməri olan Bakı-Tbilisi-Ceyhanın əsası qoyuldu. "Əsrin Müqaviləsi" sayəsində Azərbaycana birbaşa investisiyalar qoyuldu və ölkəmiz dünya bazarında iqtisadi müttəfiq kimi tanındı. Bununla yanaşı, Azərbaycan beynəlxalq hüquq müstəvisində iqtisadi maraqlarını və iqtisadi hüquqlarını qorumağa başladı. Ulu Öndərin Azərbaycan dövlətçiliyi qarşısında tarixi xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılması oldu. Belə ki, 1995-ci ildə qəbul olunmuş Konstitusiya Azərbaycan Respublikasının dövlət quruculuğunun əsaslarını formalaşdırdı. Dahi Öndər Heydər Əliyevin müəllifliyi ilə hazırlanmış və ümumxalq səsverməsi nəticəsində qəbul olunmuş bu ali Sənəd müstəqil Azərbaycan Konstitusiyası kimi tarixə yazıldı. 1995-ci ildə müstəqil Azərbaycanın ilk parlamentinə keçirilən seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açdı.

## VERİLƏN VƏDLƏR YERİNƏ YETİRİLDİ

Ümummilli Lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə yenidən qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələr məkanında nəzərəçarpan dönüş yarandı. Elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil siyasi inkişaf dövlətimizin möhkəmləndirilməsində, sivil dünyaya sıx inteqrasiya prosesinə qoşulmasında və xalqımızın strateji mənafelərini təmin edən modern cəmiyyətin qurulmasında həlledici rol oynadı. Bu gün Azərbaycanda müstəqil dövlətçilik ənənələri formalaşdırılmışdır və şübhəsiz ki, bu mühüm nailiyyətin əldə edilməsində Ümummilli Lider Heydər Əliyevin fədakar xidmətlərinin müstəsna əhəmiyyəti vardır. Azərbaycan Prezidenti İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi xəttinə sadiq qalaraq, müstəqil ölkəmizi inamla gələcəyə doğru aparır. Azərbaycanın uğurlu inkişafı təmin edilib və qarşıda duran bütün əsas vəzifələr uğurla icra edilib. Bunun təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır. Ötən dövrdə uğurlu inkişaf tarixini yaşayan Azərbaycanda həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Ötən dövr aydın şəkildə göstərdi ki, İlham Əliyev Prezidentliyi dövründə ölkənin həyatının bütün sahələrində verdiyi vədlərin hamısını yerinə yetirmiş və sosial problemləri həll etmişdir.

## "XOŞBƏXT ADAMAM Kİ, ATA VƏSİYYƏTİNİ YERİNƏ YETİRDİM"

Son illər ölkəmizin iqtisadi qüdrətinin artması milli ordumuzun möhkəmlənməsinə də geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Ulu Öndər Heydər Əliyevin ən böyük arzusu Qarabağın düşmən tapdağından azad edilməsi, ərazi bütövlüyümüzün bərpası idi. Ulu Öndər Heydər Əliyev belə deyirdi: "Qarabağ məsələsini həll edəcəyik. Zaman lazımdır, vaxt lazımdır. Azərbaycan torpaqları heç vaxt onun əlindən gedə bilməz. Bizim işğal olunmuş torpaqlarımız mütləq qaytarılacaqdır. Nəyin bahasına olur-olsun". Bütün ömrünü doğma Vətəninə və xalqına həsr edən Udu Öndər "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur", - deyirdi. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrimizin Müzəffər Ali Baş Komandanı İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. 30 illik işğala hərbi-siyasi yolla son qoyuldu. Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Silahlı Qüvvələrimizin modernləşdirilməsi, müasirləşdirilməsi, eləcə də, maddi-texniki bazasının ən müasir standartlar səviyyəsinə çatdırılması sahəsində kifayət qədər əhəmiyyətli işlər reallaşdırılıb. Məhz bunun nəticəsidir ki, Azərbaycan Cənubi Qafqaz regionunda ən güclü orduya malik ölkə statusunu daşıyır. Bu gün Azərbaycanda istehsal olunan bir çox hərbi məhsullar ordumuzun potensialının gücləndirilməsində əsas amillərdən biridir. Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası torpaqlarımızın işğaldan azad olması ilə nəticələndi. Tarixi qələbənin qazanılmasında Ali Baş Komandan, Müzəffər Azərbaycan Ordusudur. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən vətən oğullarının şücaəti, mücadiləsi milyonlarla insanlara qələbə sevincini yaşatdı. Prezident İlham Əliyevin özünün də dediyi kimi, O, ata vəsiyyətini, Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusunu - Qarabağın mənfur düşmənlərdən, işğalçı ermənilərdən azad olunmasını gerçəkləşdirdi. Azərbaycan Prezidenti İlham Əliyev xalqa müraciətində Şuşanın işğaldan azad edilməsinin tarixi əhəmiyyətindən danışarkən "Mən bu gün ulu öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun Azərbaycan! Gözünüz aydın olsun dünya azərbaycanlıları!" - deyə bildirmişdi.

Xalq-iqtidar birliyi Azərbaycanı zəfərə, qələbəyə apardı. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad olunmuş ərazilərimizdə sürətli yenidənqurma və bərpa işləri həyata keçirilməkdədir. Ulu Öndər Heydər Əliyev tərəfindən qorunub-saxlanılan müstəqilliyimiz bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə daha da möhkəmləndirilib və Onun əbədiliyi təmin edilib.

***Zümrüd BAYRAMOVA***

# Heydər Əliyev-100

# Azərbaycan yeni zirvələr fəth edir

*Yasamal rayonunda "Heydər Əliyev İli" çərçivəsində tədbir keçirilib*

**"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiq edilən Tədbirlər Planı çərçivəsində iyunun 8-də YAP Yasamal rayon təşkilatı Akademik Milli Dram Teatrında tədbir keçirib.**

Əvvəlcə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarı ziyarət olunub, önünə gül dəstələri qoyulub, Ulu Öndərin əziz xatirəsi dərin ehtiramla anılıb.









Tədbirin rəsmi hissəsindən öncə Akademik Milli Dram Teatrında "Heydər Əliyev İli" ilə əlaqədar rəsm sərgisinə baxış keçirilib. Tədbirdə Dövlət Himni səsləndirilib. Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Daha sonra Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş olunub.

Tədbiri giriş sözü ilə açan YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlət, millət qarşısında tarixi xidmətləri zaman keçdikcə daha aydın görünür. Ulu Öndərin uzaqgörən, müdrik siyasəti nəticəsində müstəqil Azərbaycan beynəlxalq arenada öz layiqli yerini tutmaq, inkişaf etmiş ölkələr sırasına qoşulmaq yolunda böyük inam və qətiyyətlə irəliləmiş, dövlət quruculuğu və iqtisadi inkişaf sahəsində böyük nailiyyətlər əldə etmişdir.

Vurğulanıb ki, Ümummilli Liderin siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla və inamla davam etdirilir, güclü və nüfuzlu Azərbaycan yeni zirvələr fəth edir. Bu gün müasir müstəqil Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə Heydər Əliyev ideyaları əsasında uğurla inkişaf edir.

Tədbirdə çıxış edən YAP İdarə Heyətinin üzvü, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov deyib ki, müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ümummilli Liderin parlaq siyasi zəkası, bacarığı, istedadı sayəsində yeni Azərbaycan, onun bugünkü gerçəklikləri yaradıldı və gələcəyə aparan yol müəyyən edildi. Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin xilaskarı olmasını ölkəmizin müstəqilliyini qoruyub saxlamaqla və yeni inkişaf üfüqləri açmaqla sübuta yetirib. Ölkəmiz dünyada layiq olduğu zirvəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilib. Azərbaycan Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin əzmkar və yorulmaz fəaliyyəti nəticəsində daha da inkişaf etməkdədir.

Milli Məclisin deputatı Elnur Allahverdiyev qeyd edib ki, Ulu Öndər Heydər Əliyevin ən əsas, müqəddəs istəyi xalqın birliyinə söykənən güclü, möhtəşəm, qüdrətli, müasir dövlətin yaradılması olmuşdur. Ümummilli Lider milli dövlətçilik ideyalarını hər şeydən üstün tutmuşdur. Azərbaycanda dövlətçilik ənənələrinin bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur.

Vətən müharibəsi şəhidi Nurlan Mustafayevin anası, "H.Cavid pr.33a" ("Bakı Metropoliteni" QSC) ünvanı üzrə ərazi partiya təşkilatının sədr müavini Rahilə Ramazanova çıxış edərək vurğulayıb ki, xalqımızın xilaskarı, müdrik dövlət xadimi Heydər Əliyevin əbədiyaşar ideyaları Azərbaycan xalqının dəyərli sərvətidir. O, Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində ölkəmizin möhtəşəm uğurlara imza atdığını söyləyib.

Tədbirdə rayonun ictimai-siyasi həyatında fəal iştirak edən partiya üzvlərinə fəxri fərman, təşəkkürnamə və hədiyyələr, partiya sıralarına yeni qoşulmuş şəxslərə isə üzvlük vəsiqələri təqdim olunub. Tədbirə bədii hissə ilə yekun vurulub.

# "Zavodun tikintisinə qətiyyən icazə vermək olmaz"

"Bildiyimiz kimi, Ermənistan Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd bölgədə və Türkiyə ilə sərhədə çox yaxın ərazidə - Arazdəyəndə ABŞ sərmayəsi ilə iri metallurgiya zavodu inşa etməyə hazırlaşır. Vaxtilə Arazdəyən-Culfa-Ordubad-Meğri-Horadiz xətti üzrə Araz çayı boyunca dəmir yolu işlək olub. Ərazidə zavodun tikintisinə 70 milyon dollar Amerika sərmayəsinin qoyuluşu nəzərdə tutulur. Məhz bu bölgədə ağır sənaye zavodunun inşası geniş zolaqda ətraf mühitin, ekosistemin pozulmasına, havanın zəhərli tullantılarla çirklənməsinə gətirib çıxaracaq. Ekoloji xətt əsas götürülməklə, bu ərazilər məhv olacaq". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin deputatı Naqif Həmzəyev deyib.





Onun sözlərinə görə, xüsusilə nəzərə alsaq ki, Naxçıvan və Türkiyənin Ermənistanla sərhəd olan ərazisində ekoloji təmiz kənd təsərrüfatı məhsulları istehsal olunur və bu ərazilərdə kənd təsərrüfatı yüksək səviyyədə inkişaf edib, metallurgiya zavodunun tikintisi ilə bu ərazilərdə həm ekosistem məhv olacaq, eyni zamanda əhalinin məşğulluq problemi daha da gərginləşək, burada kənd təsərrüfatını inkişaf etdirmək hansısa müsbət nəticə verməyək: "Bu baxımdan həm Azərbaycanın, həm də Türkiyənin QHT-ləri və ictimai fəalları bu problemin həlli ilə bağlı məsələni beynəlxalq təşkilatlar qarşısında qaldırmalıdır. Bacardığımız qədər çalışmalıyıq ki, burada belə bir metallurgiya zavodu tikiləcəyi təqdirdə ən müasir avadanlıqlar tətbiq edilsin, zəhərli maddə və tullantıların təbiətə axıdılması, yaxud havaya tüstü buraxılması zamanı xüsusi müasir filterlər mütləq quraşdırılsın. Əks təqdirdə belə bir metallurgiya zavodunun tikintisinə qətiyyən icazə vermək olmaz. Ümumiyyətlə, belə bir zavodun tikintisi bu ərazinin ekosisteminin məhvinə gətirib çıxara bilər".

Deputat sözlərinə belə davam edib: "Bilirsiniz ki, Ermənistan tərəfi ekologiyanın qorunmasına heç də diqqət ayırmır. Onlar xüsusilə Qafan ərazisində faydalı qazıntıların istehsalı ilə əlaqədar Oxçuçay və Araz çayına tullantılar axıdırdılar. Bunun nəticəsində həmin ərazidə ekoloji böhran yarandı. Daha sonra Atom elektrik stansiyası da təhlükə ilə üzləşib. Onun da fəaliyyətinin dayandırılmasını Ermənistan tərəfi həyata keçirmir. Buna paralel olaraq Naxçıvan və Türkiyə sərhədinə yaxın ərazidə belə iri metallurgiya zavodunun tikintisi də növbəti ekoloji problemlə qarşılaşmağa xidmət edəcək. Bu baxımdan bu zavodun tikintisinə qətiyyən icazə vermək olmaz. Çalışmaq lazımdır ki, ABŞ-ın bu layihəyə sərmayə qoyacaq tərəflərini inandıraq ki, belə bir metallurgiya zavodunun burada tikintisinə ehtiyac yoxdur. Yaxud bu başqa bir ərazidə tikilsin".

***Ayşən Vəli***



# Çimərlik mövsümünə hazırıqmı?

Dəniz çirklənməsi insan tərəfindən dəniz ekosisteminə zərər vuran, insan sağlamlığına təhlükə yaradan, balıq ovu ilə bağlı fəaliyyətin qarşısını alan, dənizdən istifadənin keyfiyyətinə təsir edən və onun təsirini azaldan maddələrin və ya enerjinin birbaşa, yaxud dolayı yolla dəniz mühitinə buraxılması kimi müəyyən edilir. Müxtəlif yollarla baş verən dənizlərin çirklənməsi təbii ehtiyatların davamlılığı və insanların gələcəyi üçün böyük əhəmiyyət kəsb edir. Bütün dünyada olduğu kimi, ölkəmizdə də dənizin çirklənməsi və sahillərlə bağlı problemlər xüsusi əhəmiyyət kəsb edir. Dünyada sənaye, dəniz nəqliyyatı, urbanizasiya, turizm və tullantıların atılması ilə yanaşı, dəniz qəzaları səbəbindən dənizlər hər keçən gün daha da çirklənməyə başlayıb.

**Bildiyimiz kimi, ölkəmizdə də çimərlik mövsümünə çox az bir zaman qalıb. Bəs, çimərliklərin çirklənməsinin qarşısını necə almaq lazımdır?**

SİA mövzu ilə bağlı araşdırma aparıb. Neft törəmələrinin sənaye üsulu ilə ge-



niş şəkildə istehsalı və istifadəsi nəticəsində tullantılar, dəniz nəqliyyatı və qəzalar dənizlərin çirklənməsində mühüm rol oynayır.

Dənizin çirklənməsi dedikdə, insanlar tərəfindən birbaşa və ya dolayı yolla dəniz mühitinə buraxılan maddələr (tullantılar da daxil olmaqla) və enerji nəzərdə tutulur. Dənizdə bioloji həyatın səmərəliliyi və davamlılığı suyun tərkibindəki oksigen və istiliyin miqdarından, həmçinin suyun temperaturundan asılıdır.

Günəş işığının dənizə daxil olması üçün nə qədər az maneə varsa, günəş işığı bir o qədər dərinə nüfuz edə bilər. Başqa sözlə, dəniz səthi nə qədər təmiz olarsa, günəş işığı bir o qədər dərinə çata bilər.

Dəniz suyunun temperaturu da eko-balans baxımından çox mühüm faktordur. Də-



niz suyu istiliyini həm günəş işığından, həm də atmosferdən alır. Atmosferlə təmasda olan dəniz səthi atmosferin istiliyini udur. Bu istilik mübadiləsinin miqdarı dəniz səthinin ilk millimetrlərinin təmizliyindən asılıdır. Dənizlərdə çirklənmə ən çox dəniz səthində olur. Yuxarıda izah edilən səbəblərdən bu bölgədə həddindən artıq çirklənmə dənizlərin soyutma qabiliyyətini zəiflədir, hava və günəşlə təmasda olmayan dənizdə eko-tarazlıq pozulur. Beləliklə, dənizlərin gələcək potensialı itirilir. Bunların nəticəsi olaraq da canlı qaynaqları zədələnir, insan sağlamlığı təhdid edilir, balıqçılıq kimi dəniz fəaliyyətləri təsirlənir, istifadə edilən dəniz suyunun keyfiyyəti pisləşir və dəniz növləri azalır.

Dənizlərdə çirklənmə səbəbləri:

1-Dəniz sahillərində salınmış yaşayış məntəqələri və sənaye obyektləri,

2- Hava yolu nəqliyyat vasitələrindən,

3- Dənizlərdə qurulan platforma və boru kəmərlərindən,

4-Gəmi və dəniz vasitələrindən.

### Dünya ölkələrində çimərliklərin vəziyyəti hansı durumdadır?

Yeddi ölkədə aparılan araşdırmaya gö-



rə, Qərbi Avropalılar dəniz plastik tullantılarını ən böyük ekoloji problem olaraq görürlər. Tədqiqat "YouGov" ictimai rəyi araşdırma şirkətinin Almaniya bölməsi və okeanlarda həyatı dəstəkləyən "Orange Ocean" təşkilatı tərəfindən aparılıb.

Braziliya və Misirdə içməli suyun çirklənməsi, Çində isə havanın çirklənməsi ən mühüm ekoloji problemdir. Sorğuda iştirak edən almanların yüzdə 49-u, ingilislərin isə yüzdə 55-i okeanların və dənizlərin çirklənməsini ən mühüm ekoloji problem olaraq gördüklərini bildiriblər.

Avstraliyalıların yüzdə 40-ı dənizlərin çirklənməsindən şikayət edərkən, yüzdə 43-ü qlobal istiləşməni daha böyük təhlükə olaraq gördüklərini bildirib.

Tədqiqatda iştirak edən amerikalılar isə okeanlar və dünya dənizlərindəki plastik tullantıları üçüncü ən böyük ekoloji problem olaraq görürlər. Amerikalıların 45 faizi qlobal istiləşməni, 38 faizi içməli suyun çirklənməsini, 34 faizi isə okeanları çirkləndirən plastikləri təhlükə adlandırıb.

Çinlilərin 59 faizinin fikrincə, ən mühüm ekoloji problem havanın çirklənməsidir. Okeanlarda və dənizlərdə plastik tullantılar çinlilər üçün böyük problem deyil.

Misir əhalisinin yalnız 7 faizi bu məsələdən narahat olduğunu bildirib. Misirlilərin 72 faizi içməli sularının artan çirklənməsindən narahat olduqlarını bildiriblər.

Braziliyalıların fikrincə, ekoloji problemlər arasında dənizlərin çirklənməsi altıncı yerdədir. Onların 57 faizi içməli suyun çirklənməsini, 47 faizi dünyanın istiləşməsini, 41 faizi isə ətraf mühitin çirklənməsini ən mühüm ekoloji problem hesab edir.

Bakı Şəhər Xidmət Ticarət və Xidmət Departamentindən SİA-ya verilən məlumata görə, Bakı şəhərinin Abşeron yarımadasında mövcud olan çimərliklər sayı çoxdur: "İstər özəl, istərsə də dövlət çimərliklərində yay mövsümünə hazırlıq işləri gedir. Bu çimərliklər təmir olunur, əlavə təmiz qum səpilir, ətraf ərazilər təmizlənir, mövcud olan istirahət guşələri rənglənib, təzələnib, duş kabinaları təmir olunub.

Ətraf mühitin mühafizəsi naminə beynəlxalq dialoq İctimai Birliyinin yaratdığı çimərliklər digər çimərliklərdən xidmətin pulsuz olmasıyla fərqlənir. Vətəndaşlar bu çimərliklərdə heç bir dəyər ödəmədən istirahət edə bilirlər və onların istirahəti üçün



"İDEA" ictimai birliyinin rəhbərliyi tərəfindən tam şərait yaradılıb. Artıq 5 ildir ki, Abşeron yarımadasının Sahil, Buzovna, Novxanı, Görədil və Pirşağı qəsəbələrində, Səbail rayonunda, "Şıx" çimərlik ərazisində - ümumilikdə 6 yerdə fəaliyyət göstərən bu çimərliklər şəhər sakinlərinin Leyla xanım Əliyevaya müraciətlərindən sonra paytaxtın dənizkənarı ərazilərində mövcud özəl istirahət mərkəzlərinə və çimərliklərə alternativ olaraq yaradılıb. Burada yaradılan şərait və ən başlıcası isə pulsuz xidmət göstərilməsi Bakı sakinləri və şəhərimizin qonaqlarının böyük rəğbətini qazanıb. Artıq bir neçə aydır yenidənqurma və təmizlik işləri aparılır. Bununla yanaşı sözügedən çimərliklərə təzə zibilqabları, söhbətgahlar, voleybol torları, futbol qapıları qoyulub. Həmçinin avtomobillərin park etməsi üçün böyük sahələr yaradılıb.

Çimərlik mövsümü elan edildikdən sonra tullantıların çimərliklərdən daşınması xüsusi qrafiklə həyata keçiriləcək. Bununla yanaşı işçi personalı tərəfindən çimərliklər ciddi nəzarətə alınacaq və çimərliklərə yeni avtobus xətləri açılacaq".

**Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Rövşən Abbasov:** "Məlumdur ki, Xəzər dənizində çirklənmə var. Yəni, bu hamı tərəfindən qəbul olunmuş bir faktdır. Bu çirklənmə bütün mənbələrdən gəlir. Beş ölkənin çirkləndirici maddələri Xəzər dənizinə axır və biz Abşeron yarımadasında çalışırıq. Yəni Abşeron yarımadasında Hövsan aviasiya stansiyası var. Bakı şəhərindəki tullantı sularının böyük bir hissəsi orada təmizlənərək Xəzərə atılır. Amma elə ərazilər var ki, orada bu təmizlənmə getmir. Məsələn, Novxanı, Pirşağı, Bilgəh istiqamətində bir çox obyektlər var ki, onların suyu birbaşa Xəzər



dənizinə axıdılır. Əlbəttə ki, bu ərazilərdə üzmək kimi fəaliyyətlər qətiyyən ola bilməz. Ən yaxşı yol isə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin açıqlamasını gözləməkdir. Onlar dəqiq olaraq deyirlər ki harada çimmək olar, yaxud olmaz. Buna əməl etmək lazımdır.

Qeyri-rəsmi məlumatlara görə, hər il 300 min tona yaxın bərk tullantılar Xəzər dənizinə atılır. Vətəndaşlardan xüsusi olaraq xahiş etmək lazımdır ki, çimərliyə gedəndə təmizliyi qorusunlar və özləri ilə hər hansı bir iz qoymasınlar. Yəni, onlar gələndə çimərlik hansı vəziyyətdə idisə, gedəndə də həmin vəziyyətdə olmalıdır. Qətiyyən plastik torbaları, plastik butulkaları, plastik qabları, ümumiyyətlə, atmaq olmaz və mümkün qədər çalışmaq lazımdır ki, az zibil yaradılsın.

Çimərliyə gedəndə elə yemək və qab aparın ki, orada tullantı yaranmasın. Bu, çox yaxşı olardı. Suyu termosda aparsanız yaxşı olar, nəinki plastik butulkada. Əlbəttə, siz plastik butulkanı zibil qabına atacaqsınız, amma yenə də əlavə yük yaranacaq. Çalışın sizdən sonra heç bir yük yaranmasın. İnkişaf etmiş ölkələrdə, ümumiyyətlə, turistlər belə ərazilərə gedəndə, hətta orada zibil qabı olsa belə, onu ora atmırlar. Özləri ilə plastik qablardan, torbalardan nəsə yaranıbsa, onu yenidən evlərinə gətirirlər.

*Ayşən Vəli*

ARAŞDIRMA

# Azad torpaqlarımız: Hüsnü əcər Kəlbəcər

**Kəlbəcər dövlətimizin başçısı cənab İlham Əliyevin həyata keçirdiyi böyük siyasətlə müharibəsiz, döyüşsüz, itkisiz geri alındı. Bu qədim torpaq azad edildikdən dərhal sonra burada quruculuq, bərpa işlərinə başlanıldı ki, kəlbəcərlilər qısa zamanda doğma yurdlarına qayıda bilsinlər. Çünki düşmən bu yurdumuzu da qarət etmiş, buradan çıxarkən vəhşiliyin bütün növlərini əzəli Azərbaycan yurduna tətbiq etmişdi.**

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev: "Biz Kəlbəcəri bərpa edəcəyik, heç kimin şübhəsi olmasın və həyat qayıdacaq. Kəlbəcərdə kənd təsərrüfatı inkişaf edəcək, xüsusilə heyvandarlıq. Bizim orada böyük otlaq sahələrimiz var. Kəlbəcərin zəngin təbii qaynaqları, təbii ehtiyatları var. Düşmən bu ehtiyatları vəhşicəsinə istismar edib. Sovet vaxtında bütün sovet məkanında məşhur olan İstisu suyu Kəlbəcərdə istehsal olunurdu. İndi İstisu da bizim nəzarətimizə qayıdır. Vaxtilə ora böyük kurort zonası idi. Mənfur düşmən hər tərəfi dağıdıb. İndi o görüntülər var, hər kəs görə bilər. Hamısını bərpa edəcəyik, Kəlbəcəri yenidən quracağıq, kəndləri, Kəlbəcər şəhərini. Tapşırıq vermişəm ki, şəhərin yenidən qurulması ilə əlaqədar baş plan hazırlansın, təkcə Kəlbəcər şəhəri yox, bütün şəhərlər üzrə həyat qayıdacaqdır".

Bəli, bu gün Kəlbəcərin əcər hüsnü dövlətimizin başçısının dəyərli ifadələrini təzahür etdirir. Kəlbəcərə həyat qayıdır.



## 27 qışın sonundakı bahar

2020-ci ilin payızına-44 günlük Vətən müharibəsinə qədər Kəlbəcər bir-birinin ardınca 27 qış yaşadı. Bahar gəlmədi bu qədim yurda. Gələ də bilməzdi. Çünki Kəlbəcər baharı qov-






muşdu ağuşundan. Köksünü qışa açmışdı. Ta azad olanadək qış ömrü yaşayacağına and içmişdi. Dağlarının min rəngli, min bir ətirli çiçəyinə "get",- demişdi. "Gəlmə, hüsnümü bəzəmə, ruhumu oxşama, yaslıyam, qoy yasımı tutum",- demişdi.

Kəlbəcər özünü bütünlüklə qışa vermişdi. Qara, buza, soyuğa vermişdi. Kimlə bahar qarşılayacaqdı ki?.. Doğmaları bu yurddan zorla çıxarılmışdı. Bağrı üstündə düşmən tapdağını hiss etdikcə Kəlbəcər əzilirdi, doğmalarının həsrəti ilə yanıb-yaxılırdı. Sərvətlə dolu köksünə hər dəfə əl uzadıldıqda haray çəkirdi. Düşmənin talançılığına qarşı üsyan edirdi. Lakin səsi yalnız dağ-daşına yayılır, əks-səda verir və yenidən bağrına qayıdıb onu boğurdu...

27 qış keçdi Kəlbəcərin ömründən... Doğmalarının olmadığı qış. Kəlbəcərin gözünün yollarda qaldığı qış... Sən demə 27-ci qış Kəlbəcərin son qışı olacaqdı. 2020-nin payızı Kəlbəcəri qışa deyil, bahara aparacaqdı. Payız bahara çevrilib Kəlbəcərin 27 illik həsrətini də vüsala çevirəcəkdi. 27 il əvvəl güllləbaran yağışı altındakı işğalından fərqli olaraq, bu dəfə bir güllə belə atılmadan azad edilə-cəkdi. Çünki məxsus olduğu ölkə 27 il öncəki ölkə deyildi. Hakimiyyət kürsüsünü möhkəmlətmək üçün satılaraq Kəlbəcəri bir qələmlə silib onu erməniyə hədiyyə edən AXC-Müsavat birləşməsi çoxdan tarixin qara qutusuna atılmışdı. Onlardan əsər-əlamət belə qalmamışdı. Özləri yaşasalar da, xalq onları silmişdi. Bir daha onlara inanmamağa and içərək silmişdi.

Kəlbəcərin işğalı ilə azadlığı arasında ötən zaman kəsiyində isə onun və Qarabağın bütün işğal altında olan torpaqlarının azad olunması üçün uzun illərlə iş aparılmışdı. Ulu Öndərimizin bu istiqamətdə həyata keçirdiyi işlər cənab İlham Əliyev tərəfindən elə bir səviyyəyə gətirilmişdi ki, ya sülh, ya da hərb yolu ilə bu torpaqların azad olunması reallaşacaqdı. Uzun illər sülh yoluna cəhd edilsə də, lakin dünya susdu və biz hərb yolunu seçməli olduq. Hərb yolu ilə 44 gün içərisində Azərbaycan Milli Ordusu elə bir bacarıq nümayiş etdirdi ki, dünənədək susan dünya dilə gəlib bu səriştədən danışmağa başladı. Beləliklə Qarabağa və Şərqi Zəngəzura yeni bir həyat qayıtdı. Bu yeni həyatdan Kəlbəcərə də pay düşdü.

## Baş planla özünəməxsusluğu qorunan Kəlbəcər

Soydaşlarımızın ata-baba torpaqlarına qayıdarkən gözəl şəraitdə yaşaya bilmələri üçün dövlətimiz tərəfindən İkinci Vətən müharibəsindən dərhal sonra geniş tədbirlərə başlanıldı.

Ötən il iyunun 26-da ölkəmizin rəhbəri Kəlbəcər şəhərinin Baş planı ilə tanış olarkən ona məlumat verilmişdi ki, onun hazırlanması zamanı özünəməxsus simasının formalaşdırılması üçün ərazinin coğrafi yerləşməsinə, quruluşuna uyğun olaraq müxtəlif memarlıq ənənələri də araşdırılıb, tətbiq ediləbiləcək nümunələrlə bağlı təkliflər verilib. Baş planın konseptual əsasını sağlamlıq və dağ turizmi imkanlarının inkişafı, təbiətlə vəhdətdə yaşıl şəhər mühitinin yaradılması təşkil edir. Şəhərin mərkəzi hissəsində çoxmənzilli binalar, ətraflara doğru isə həyətyanı sahəsi olan fərdi evlər inşa olunacaq. Növbəti 20 il ərzində Kəlbəcər şəhərinin ərazisinin 237 hektara, əhalisinin sayının isə 17 min nəfərə çatacağı proqnozlaşdırılır.

Baş planda nəzərdə tutulanlar Kəlbəcərin yaxın gələcəkdə sahib olacaqlarını gözlər önündə canlandırırdı. Budur, bu yurd yeri dövlət başçısının Kəlbəcərə önçəki səfəri zamanı söylədiyi "Bu da gözəl Kəlbəcər dağları, hər tərəf dağ, çay, meşə, cənnətməkan. Cənnətə də çevriləcəkdir" dəyərli fikirlərindəki kimi, qurulur, yaradılır, cənnətə çevrilir.

2021-ci ildə Kəlbəcər rayonunun ərazisində Lev çayı üzərində 4,4 MVt gücündə "Kəlbəcər-1" Kiçik Su Elektrik Stansiyasının yenidən qurulması, 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasının fəaliyyətə başlaması, Prezident cənab İlham Əliyevin Sərəncamına əsasən 72,8 kilometr uzunluğunda Kəlbəcər-Laçın avtomobil yolunun tikintisinə başlanması, bu yol üzərində 3,4 kilometr uzunluğundakı tunelin təməlinin qoyulması, İstisuya əvvəlki şöhrətini qaytarmaq üçün 51 kilometr uzunluğunda İstisu-Minkənd yolunun tikintisi Kəlbəcərin azadlığından sonra abadlığına doğru gedən yolda ilkin olaraq gördüklərimiz idi.

## Gözünüz aydın yanşaqlılar, zallarlılar!

Dövlətimizin başçısının Qarabağa və Şərqi Zəngəzura hər dəfə səfərləri bu qədim yurd yerlərinin inkişafına yeni töhfələrlə yadda qalır. May ayının 27-də bunun bir daha şahidi olduq. Cənab İlham Əliyev Kəlbəcərin hüsnünü oxşayan neçə-neçə tikililərin təməlini qoymaqla, açılışlarını etməklə bu yurd yerinin dirçəlməsi, sakinlərinin tezliklə ata-baba ocaqlarına qayıtmaları üçün yeniliklərə imza atdı.

Yurd salmaq, binə etmək ən savab əməldir. Dağıdılan, viran edilən yurdların bərpası isə ikiqat savabdır. Odur ki, dövlətimizin başçısı həm torpaqlarımızın düşməndən geri alınmasına, həm də yurdlarımızın bərpa edilməsinə görə yüzilliklərlə yaşı olan xalqımızın tarixində özünəməxsus yer qazandı.




Həmin gün Kəlbəcərin Yanşaq və Zallar kəndlərinin təməli qoyuldu. Yanşaq kəndində ümumilikdə 421 ailənin məskunlaşması planlaşdırılıb. Yaşayış məntəqəsinin salınması üçün 20 illik perspektiv və həmin müddətdən sonrakı inkişaf nəzərə alınmaqla, 121 hektardan çox torpaq sahəsinin ayrılması nəzərdə tutulub. Birinci mərhələdə kəndə 218 ailənin köçürülməsi üçün birmərtəbəli fərdi evlərin inşası planlaşdırılır. Tikiləcək 218 evin 50-si ikiotaqlı, 112-si üçotaqlı, 41-i dördotaqlı və 15-i beşotaqlı olacaq. Burada, həmçinin 264 şagird yerlik məktəb, 80 yerlik uşaq bağçası tikiləcək.

Zallar kəndində isə ümumilikdə 487 ailənin məskunlaşması nəzərdə tutulub. Yaşayış məntəqəsinin salınması üçün 20 illik perspektiv və həmin müddətdən sonrakı inkişaf nəzərə alınmaqla 137 hektar torpaq sahəsi ayrılıb. Birinci mərhələdə kəndə 350 ailənin köçürülməsi üçün birmərtəbəli fərdi evlərin inşası planlaşdırılır. Tikiləcək 350 evin 100-ü ikiotaqlı, 167-si üçotaqlı, 57-si dördotaqlı, 26-sı isə beşotaqlı olacaq. Burada, həmçinin 360 şagird yerlik məktəb, 120 yerlik uşaq bağçası inşa ediləcək.

Hər iki kəndin əhalisinin məşğulluğunun və istirahətinin təmin edilməsi üçün hər cür şərait yaradılacaq, geniş abadlıq və yaşıllaşdırma işləri görüləcək. Burada evlərin və küçələrin işıqlandırılmasında ”yaşıl enerji”dən istifadə olunacaq.




## Kəlbəcər ”yaşıl enerji zonası”na çevrilir: növbəti ”Qamışlı” və ”Meydan” Kiçik Su Elektrik stansiyaları oldu

Prezident İlham Əliyev: ...Kəlbəcəri tərk etmək üçün onlara vaxt verəndə nə etdilər? Evləri yandırmağa, ağacları kəsməyə başladılar və 32 su elektrik stansiyasını dağıtdılar. Təsəvvürünüzə gətirirsinizmi?

İşğaldan azad edilən ərazilərin ”yaşıl enerji zonası”na çevrilməsi ilə bağlı dövlətimizin başçısının tapşırığına uyğun olaraq, Vətən müharibəsində Qələbədən sonra ümumi gücü 20 meqavat olan ”Güləbird”, ”Suqovuşan-1”, ”Suqovuşan-2” , 4,4 MVt gücündə ”Kəlbəcər-1” Kiçik Su Elektrik stansiyaları tikilib istifadəyə verildi. Artıq bu stansiyalarda milyonlarla kilovat/saat elektrik enerjisi istehsal olunur. Kəlbəcəri nura boyayacaq stansiyalardan növbəti ermənilərin buranı tərk edərkən avadanlıqları daşıyaraq tamamilə dağıtdıqları ”Qamışlı” və ”Meydan” Kiçik Su Elektrik stansiyaları oldu.

”Qamışlı” Kiçik Su Elektrik Stansiyasında ümumilikdə il ərzində 18,5 milyon kilovat-saat ekoloji cəhətdən təmiz yaşıl hidroenerjinin istehsal edilməsi nəzərdə tutulur. ”Meydan” Kiçik Su Elektrik Stansiyasında isə il ərzində 10 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq.

Tərtərçayın sol qolu olan Meydan çayının üzərində 3,4 MVt-lıq bu kiçik su elektrik stansiyası tam yenidən qurulub. Ermənilər tərəfindən partladılaraq yandırılan və avadanlıqları daşınan bu stansiyanı ”AzərEnerji” daha müasir və rəqəmsal qaydada yenidən qurub.

”Qamışlı” və ”Meydan” Kiçik Su Elektrik stansiyalarını işə salan Prezident İlham Əliyevə məlumat verilib ki, işğaldan azad olunan ərazilərdə ”AzərEnerji” ASC tərəfindən bu günə qədər 11 su elektrik stansiyası yenidən qurularaq bərpa edilib. Hazırda Kəlbəcər, Laçın və Zəngilanda 7 yerdə su elektrik stansiyalarının tikintisi davam edir. Eləcə də Kəlbəcər və Laçında daha 9 yerdə su elektrik stansiyalarının tikintisinə başlanılır. Ümumilikdə bu günə kimi yenidən qurulan və yaxın perspektivdə tikilərək istismara veriləcək bu su elektrik stansiyalarının ümumi gücü 200 MVt-a yaxın olacaq və nəticədə 600 milyon kilovat-saata yaxın ekoloji cəhətdən təmiz hidroyaşıl enerji istehsal ediləcək.

## Toğanlıdan Kəlbəcərə, oradan İstisuya uzanan yollar...

Yol döyünən ürəkdir. Bir nasazlıqla tamamilə dayana, fəaliyyətdən qala bilir. Ürək insanı yaşadırsa, yol da iqtisadiyyatın var olması deməkdir. Elə buna görə də dövlətimizin başçısı hələ müharibə bitməmişdi, azad edilən torpaqlarda yol infrastrukturunun qurulması üçün tapşırıqlar verirdi. Hazırda Qarabağda və Şərqi Zəngəzurda minlərlə kilometr yol çəkilir, abadlaşdırılır, bərpa olunur.

Bütün bunların davamı olaraq Prezident İlham Əliyev mayın 27-də uzunluğu 82 kilometr olan Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolunda inşa edilmiş tunellər və 2021-ci ilin noyabrından 2023-cü ilin mayınadək ümumilikdə bu yolda və uzunluğu 76 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolunda da görülən işlərlə tanış olub.

Toğanalı-Kəlbəcər-İstisu avtomobil yolu başlanğıcını Göygöl rayonunun Toğanalı kəndindən götürməklə Kəlbəcər rayonunun ərazisindən keçir. Buna görə də yol rayonun bir çox yaşayış məntəqələri ilə yanaşı, Kəlbəcər şəhərinə və məşhur İstisu ərazisinə qədər rahat gediş-gəlişə imkan yaradacaq. Yolun tikintisi sürətlə davam etdirilir. I, II və III texniki dərəcəli yol iki, üç və dörd hərəkət zolağından ibarət olacaq. Bu yolun üzərindəki 5 tunelin ümumi uzunluğu 25,9 kilometrdir. Tunellərin 12,3 kilometrlik hissəsində qazma işləri tamamlanıb. Buradakı ən uzun tunel Murov dağının altından keçir. Həmin tunelin uzunluğu 11,6 kilometrdir.

Dövlətimizin başçısına məlumat verilib ki, uzunluğu 76 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolu mövcud yoldan 33,1 kilometr qısadır. I və II texniki dərəcəli bu yol ikizolaqlı və dördzolaqlı olmaqla inşa edilir. Bu yolun üzərində 17 tunelin inşası nəzərdə tutulur. Tunellərin ümumi uzunluğu 13,3 kilometrdir. Bundan başqa, yol üzərində ümumi uzunluğu 4,1 kilometr olan 23 körpü və ümumi uzunluğu 1076 metr təşkil edəcək 3 qovşaq inşa olunacaq.

## Ötən il hərbi hissə, bu il hərbi hospital

2022-ci ildə-26 İyun-Silahlı Qüvvələr Günündə Kəlbəcərdə dövlətimizin başçısının iştirakı ilə hərbi hissə açılmışdı: Bu gün Kəlbəcərdə ikinci komando hərbi hissəsi açılır. Növbəti komando hərbi hissələrinin açılması nəzərdə tutulur və bu silahlı birləşmələrdə minlərlə azərbaycanlı xidmət edəcək... Bu, bizim gücümüzü daha da artıracaq. Biz Kəlbəcəri bir güllə atılmadan azad etdik, öz doğma diyarımızı qaytardıq və bu gün Kəlbəcərdə quruculuq işləri gedir. Mən ikinci dəfədir Kəlbəcərə gəlirəm və bu gün də bir çox tədbirlər var. Kəlbəcərin infrastrukturu, elektrik təchizatı, su təchizatı, evlərin tikilməsi - artıq buna start verilir. Əlbəttə ki, biz, ilk növbədə, hərbi təyinatlı yolları inşa etməliydik və bunu etdik. Bu gün bu hərbi hissənin açılması bir daha göstərir ki, biz istədiyimizə nail olacağıq - Qarabağı və Şərqi Zəngəzuru bərpa edəcəyik. Artıq bu proses başlamışdır və ilk növbədə, bu bölgədə - Qarabağda və Şərqi Zəngəzurda bizim hərbi gücümüz daim möhkəm olmalıdır. Ona görə bugünkü mərasim xüsusi məna daşıyır, rəmzi məna daşıyır.

Bu il may ayının 27-də Kəlbəcərdə hərbi hospitalın açılmasını da ordu quruculuğuna növbəti töhfə kimi dəyərləndirmək olar.

3,6 hektar ərazidə salınan Kəlbəcər hərbi hospitalı sülh dövrü üçün 180 çarpayılıqdır. Döyüş vəziyyəti zamanı çarpayı sayını 300-dək artırmaq mümkündür. Müasir, tam rəq?msal, süni intellektə əsaslanan tibbi cihaz və avadanlıqlarla təchiz olunan hərbi hospitalda poliklinika, terapiya, cərrahiyyə, anesteziologiya-reanimasiya bölmələrindən ibarət birinci müalicə korpusu, yoluxucu xəstəliklər və dəri xəstəlikləri bölmələrindən ibarət ikinci müalicə korpusu, qərargah binası, eləcə də daimi tibbi oksigen təminatı üçün stansiya, camaşırxana-qazanxana, nəzarət-buraxılış məntəqəsi və yeməkxana tikilib.

Poliklinika bölməsində ixtisaslar üzrə oftalmoloq, otorinolarinqoloq, kardioloq, stomatoloq, nevroloq, psixiatr, fizioterapevt və digər kabinetlər açılıb. Təcili yardım otağında ilkin yardım göstərmək üçün hər cür şərait mövcuddur.

Hospitalda iki əməliyyat otağı fəaliyyət göstərir. Müalicə korpuslarında hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstərilməsi, o cümlədən onların müayinə və müalicəsi üçün bütün şərait yaradılıb. Laboratoriya bölməsi ən yüksək standartlara cavab verir. Burada müasir laborator müayinə üsulları tətbiq edilməklə klinik, biokimyəvi və mikrobioloji analizlərin aparılması mümkündür.

Kəlbəcər hərbi hospitalı, həmçinin bioloji təmizləmə qurğusu, ehtiyat generator, cərrahi əməliyyatların fasiləsizliyi üçün UPS, mərkəzləşdirilmiş su, istilik və digər kommunikasiya sistemləri ilə tam təchiz olunub.

Bundan əlavə, hərbi hospitalın avtomobil parkında reanimobillər, yolsuzluq şəraitində təxliyə üçün ambulanslar, çöl şəraitində hərbi qulluqçulara tibbi xidmət göstərilməsi üçün avtomobillər var. Hərbi hospitalın ətrafındakı ərazidə yaşıllaşdırma və abadlıq işləri də görülüb.

## Kəlbəcər şəhərində ilk yaşayış məhəlləsi

Erməni vandalizminə məruz qalan Kəlbəcər şəhəri də digər azad torpaqlarımızdakı şəhərlər kimi yeni həyatının astanasındadır. Bu müqəddəs torpaqların üzərində qurulub-yaradılanların hər biri illərlə yurdundan kənarda qaçqın və məcburi köçkün həyatı yaşayan insanlara 30 illik zaman kəsiyindən sonra bəxş edilən xoşbəxtlikdir. Çünki onlar bu yaradılanlar sayəsində yaxın gələcəkdə doğma yurdlarına qayıda biləcək, rahat, firavan həyatlarına başlayacaqlar.

Prezident İlham Əliyev tərəfindən Kəlbəcər şəhərində təməli qoyulan yaşayış məhəlləsi də hələ bu gündən sakinlərini həm sevindirir, həm də həyacanlandırır.

Yaşayış məhəlləsi 3,26 hektar ərazidə layihələndirilib. Yaşayış məhəlləsinin konsepsiyası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi ilə icra olunan Baş plan layihəsi çərçivəsində hazırlanıb. Məhəllədə dördmərtəbəli 3 və ikimərtəbəli 10 yaşayış binasının inşası nəzərdə tutulur. Burada 112 mənzildə ümumilikdə 460 nəfərdən çox sakin yaşayacaq. Məhəllədəki məktəbin ətrafında salınacaq yaşıllıq ərazi ictimai məkan funksiyasını yerinə yetirməklə əhalinin asudə vaxtının səmərəli keçirilməsinə xidmət edəcək.

## Növbəti məktəb Kəlbəcər şəhərində: 960 şagird yerlik

Ölkəmizdə son 20 ildə təhsil sahəsində uğurlu nailiyyətlər əldə olunub. Bunun əsasını isə dövlətimizin bu sahəyə göstərdiyi qayğı təşkil edir. Bu qayğını hazırda azad Qarabağımızda və Şərqi Zəngəzurumuzda görməkdəyik. Dövlətimizin başçısının Kəlbəcərə növbəti səfəri çərçivəsində Kəlbəcər şəhərində 960 şagird yerlik məktəbin təməlini qoyması ölkəmizdə hər bir uşağın gələcəyinin ən yaxşı şəkildə təminatı kimi dəyərləndirilir.

41 sinifdən ibarət olacaq məktəb binasında fizika, kimya, biologiya, informatika kabinetləri, müxtəlif təyinatlı səkkiz laboratoriya, akt və idman zalları, yeməkxana və digər zəruri otaqlar yaradılacaq.

## Beləliklə, hüsnü əcər Kəlbəcər...

Azad olunan torpaqlarımız haqqında yazı yazmaq o qədər gözəldir ki... Adam hər sərlövhəni ürəyinin səsi ilə seçdikcə, hər cümləni qürurla yazdıqca, özünü xoşbəxtlərin xoşbəxti hiss edir. Ən əsası ona görə ki, cəmi üç ildən də az bir müddətdə Qarabağda və Şərqi Zəngəzurda bu qədər işlər görülüb. Kəlbəcər də əcər hüsnü ilə onların sırasındadır.

Başqa cür ola da bilməzdi. Torpaqlarımız cəmi 44 gündə işğaldan azad olundusa, təbii ki, 3 ilə yaxın dövrdə də bu qədər bərpa işləri görüləcəkdi. Çünki Zəfərimiz dəmir yumruğun nəticəsi idisə, postmüharibə dövrü isə dəmir iradənin nəticəsidir.

***Mətanət Məmmədova***

# Əjdər İsmayılovun 85 illik yubileyinə həsr edilmiş elmi sessiya keçirilib



***İyunun 8-də AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron akt zalında görkəmli tarixçi, filoloq-türkoloq, filologiya elmləri doktoru, professor Əjdər İsmayılovun anadan olmasının 85 illik yubileyinə həsr edilmiş elmi sessiya keçirilib. SİA xəbər verir ki, tədbirdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli, AR Milli Məclisinin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, yazıçı-publisist Yunus Oğuz, Ədəbiyyat İnstitutunun, Dilçilik İnstitutunun, Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun əməkdaşları və aidiyyəti şəxslər iştirak ediblər.***

Sessiyanı giriş sözü ilə açan akademik İsa HəbibbəyliƏjdər İsmayılovun elmi fəaliyyəti ilə yanaşı, Azərbaycanın müstəqilliyinin qorunması uğrunda mübarizənin əsas fədakarlarından biri olduğunu deyib. Qeyd edib ki, bənzərsiz şəxsiyyəti ilə seçilən Əjdər İsmayılov zahirən çılğın, emosional görünsə də, hər zaman onun niyyətində xeyirxahlıq, insanlıq dayanıb və bu, onun obrazını, simasını müəyyən edən keyfiyyətlərdir.





Professor Əjdər İsmayılovun Azərbaycan ədəbiyyatşünaslıq elminə mühüm töhfələr verdiyini bildirən AMEA rəhbəri onun Hüseyn Cavid haqqında apardığı silsilə tədqiqatlarla Azərbaycan ədəbiyyatının tanınmış simalarından birinə çevrildiyini söyləyib.Diqqətə çatdırıb ki, Əjdər İsmayılov ötən əsrdə Hüseyn Cavidlə bağlı tədqiqatlar apararkən görkəmli ədibə yenicəbəraət verilmişdi və Cavid araşdırmaçıları öz işlərini ehtiyatla görürdülər: "Əjdər İsmayılov isə Cavid sənətinə bağlı olduğu üçün çəkinmədən tədqiqatlarını aparmış,cavidşünaslar arasında öz sözünü demişdir. Onun xarakteri qətiyyən dəyişməmişdir. O, təkcə Hüseyn Cavid haqqında tədqiqatlar aparmamış, bütövlükdə Cavid uğrunda mübarizə aparmışdır. Ötən əsrdə müqayisəli tipoloji tədqiqatlar aparılarkən ya Qərbi, ya da SSRİ-ni əsas götürərək, "böyük qardaş"a ehtiyac duyulardı. Əjdər İsmayılov isə belə yanaşmalara əhəmiyyət verməzdi. "İblis"in mənşəyini Qərb ədəbiyyatında deyil, Şərq mədəniyyətinin dərin qatlarında axtarırdı. Bu, onun ədəbi siması idi".

AMEA prezidenti bildirib ki, Əjdər İsmayılovun ədəbiyyatşünaslıq, tarix, dilçilik, türkologiya və digər sahələrdə apardığı bütün tədqiqatlarda vətənpərvərlik, azərbaycançılıq mövqeyi vardı. Qeyd edib ki, Əjdər İsmayılov "Moisey Xorenatsi anonim keşiş müəllifdir", "Mesrop Maştos əlifba ixtiraçısı deyil, fırıldaqçı anonim keşişdir" kimi uydurma tarix və şəxsiyyətlərlə bağlı ciddi əsərlər ortaya qoyub, Albaniya ilə bağlı önəmli araşdırmalar aparıb və həmin tədqiqatlar bu gün Albanədəbiyyatını, mədəniyyətini, ictimai fikrini öyrənənlər üçün qiymətli mənbələrdir.

Əjdər İsmayılovun ölkəmizin ictimai-siyasi həyatında da yaxından iştirak etdiyini vurğulayan akademik İsa Həbibbəyli onun Heydər Əliyevin ən yaxın silahdaşlarından və məşhur "91-lər"dən olduğunu, HeydərƏliyevçilik uğrunda sonacan, qətiyyətlə, təmənnasız mübarizə apardığını bildirib. Diqqətə çatdırıb ki, Yeni Azərbaycan PartiyasınınVeteranlar Şurası yaradılarkən ölkə başçısının etimadı ilə Əjdər İsmayılov şuranın üzvü seçilib və bu, Prezident İlham Əliyevin Əjdər İsmayılovun fəaliyyətinə verdiyi ədalətli qiymət idi. Bu gün onun oğlu Cavid İsmayılın atasının irsinin təbliğində fəal çalışdığını deyən akademik İsa Həbibbəyli tədqiqatları ilə onun yolunu davam etdirdiyini deyib və Əjdər İsmayılovun daim qəlblərdə yaşayacağını söyləyib.

AR Milli Məclisinin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov isə çıxışında Əjdər İsmayılovu gənclik illərindən tanıdığını və onun daim ətrafında olan gənclərə dəstək göstərdiyini bildirib. Qeyd edib ki, Azərbaycanın dövlət müstəqilliyi təhlükə altına düşdüyü bir zamanda Əjdər İsmayılov sakit dayana bilməzdi və konstitusiyadakı "yaş həddi" bəhanəsi ilə Heydər Əliyevin hakimiyyətinə və şəxsiyyətinə yönəlmiş maddəyə etiraz olaraq 1992-ci ilin aprel ayındakeçirilən mitinqin əsas təşkilatçılarından idi.

"Əjdər İsmayılovun Heydər Əliyevə bəslədiyi böyük məhəbbətin səbəbi nə ola bilərdi? Bu, Ulu Öndərin Hüseyn Cavidə, onun nəşinin ölkəmizə gətirməsindən, Turançılığa olan sevgisindən qaynaqlana bilərdi.Naxçıvandan başlayan Turançılıq bu gün Türk Dövlətləri Təşkilatına çevrilib. Bəlkə də sovet hakimiyyəti illərində Heydər Əliyevin azərbaycançılıq sevgisini görmüşdü.Bəlkə də öz arzularını və xalqının gələcəyini müdafiə etmək üçün Heydər Əliyevə bu qədər bağlıydı?", - deyə Sadiq Qurbanov bildirib. Qeyd edib ki, bu gün ölkə başçımızın Türk dünyası istiqamətində atdığı addımlar Azərbaycan xalqının işıqlı gələcəyinə xidmət edir və bu yolda çalışmaq, xidmət etmək borcumuzdur.

Sessiyada, həmçinin AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun baş direktoru, professor Nadir Məmmədli, AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Tahirə Məmməd, AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun şöbə müdiri, professor Qafar Cəbiyev və yazıçı-publisist Yunus Oğuz çıxış edərək alimin ictimai-siyasi fəaliyyətindən, apardığı ədəbi, tarixi, albanşünaslıq, dil, filologiya sahəsindəki tədqiqatlardan danışıblar.

Sonda Əjdər İsmayılovun oğlu iqtisadçı alim, hüquqşünas Cavid İsmayıl çıxış edərək atasının 85 illik yubileyi ilə bağlı respublika ərazisində tədbirlərin keçirilməsi münasibətilə ölkə başçısına minnətdarlığını bildirib. Həmçinin bugünkü tədbirin təşkilatçılarına və iştirakçılarına Əjdər İsmayılovun xatirəsini yad etdikləri və əziz tutduqları üçün təşəkkür edib.

# Təxribatçı, həm də xəyanətkar - Tofiq Yaqublu

***Ataların bir məsəli var, "meşə çaqqalsız olmaz", amma baxır çaqqala. Bu dördayaqlı məməlilərin də instinktiv davranışları var, aralarında həddini aşıb acgözlük edənləri də yox deyil.. Vay o gündən ki, çaqqal pis əməlində adətkar ola, onun işi qalır bir Allaha. Meşə qanunlarından fərqli olaraq cəmiyyətdə yanaşmalar fərqlidir, ən azından bəzi insanlara səhvini düzəltməsi üçün daha çox şans verilir. O vaxta qədər ki, adam ağlını itirməsin, ziyankarlıq etməsin, bir növ adətkar olmasın...***

Bu gün Azərbaycanda demokratik cəmiyyətlərə xas rəngarəng mühit formalaşıb. Amma bu mühitə alışmaq istəməyənlər də tapılır içimizdə. Yəni fürsətçil, təxribatçı və nəhayət xəyanətkarlıq pasportu daşıyırlar ciblərində. Bu xarakterdə olanlar yaşadığı ölkənin qanunlarını tanımaqda ərköyünlük edirlər. Çünki onlarla demokratik cəmiyyətlərə xas, qanunlar çərçivəsində davranılacağına əmindirlər. Məhz buna görə, lazım gəldi, gəlmədi küçə və meydanlarda insanları narahat etməkdən çəkinmirlər. Çox istədikləri Amerika, Fransa və digər ölkələrdə eyni hərəkəti edənlərin aqibətinin nə ilə sonuclandığını bilsələr, yəqin ki, "qələt" kitabını qoltuq ciblərində gəzdirərlər. Artıq bilirlər, amma yenə...

Mətləbə keçməyə də ehtiyac yoxdur, çünki söhbətin kimdən getdiyini




yəqin ki, tuta bildiniz. Harada aş, orada baş Tofiq Yaqubludan söhbət açacağıq. Yox, bu adam təxribatda, ara qarışdırmaqda, xəyanətkarlıqda və ümumiyyətlə şər işində yeni sima deyil. Kifayət qədər təcrübəli adamdır. Hətta, onun bu fərasəti nəinki okeanın bu tayındakıların, hətta o tayındakıların da diqqətini cəlb edə bilib. Dağdan ağır Corc Soros da Tofiqin adını dəftərinin bir küncünə yazıb. Niyə də yazmasın, Tofiq onun üçün asanca ələ gələn yemdir. Halbuki, Tofiq Yaqublu kimi bir təxribatçını, vətənini, dövlətini, xalqını 3 qəpiyə satanın birisini Soros ətək-ətək pul tökməklə, həm də uzun bir vaxtda hazırlayır, əhilləşdirir, müxtəlif simulyasiya təlimləri keçir, özünəxsərat metodları üzərində işləyir. Tofiq isə hazırca tikədir, qoca Corcun boğazından asanlıqla həzm-rabeyə ötürülən loxma.

Tofiq Yaqublu təkcə vətənini yox, hər şeyini satmağa adət etmiş birisidir. Onun dövlətinə qarşı üzədurançlıq etməsini anladıq, "Milli Şura" adlı ölü qurumda təmsil olunan "ölü canları", guya məsləkdaşlarını satdığına, Sorosdan daha çox para alması üçün bu qurumdakıların intim videolarını toplayıb ağasına göndərməsinə nə deyirsiniz? Beləsindən, necə deyərlər, heç it də xeyir görməyib. Bəd əməllərinə övladlarını da şərik edən atadan nə gözləmək olar? Adını da mübarizlik qoyub.

Son vaxtlar ayrı-ayrı qalmaqalları ilə yadda qalan müsavatçı Tofiq Yaqublu indi də virtual müzakirələr zamanı "əqidə yoldaşı" Əli Kərimlini hədəfə alıb. Düzdür, o bu əməlini əvvəllər gizli edib, indi isə işini açıq görməyə üstünlük verir. Onun AXC-Müsavat iqtidarı zamanı Elçibəyə qarşı xəyanətkarlıq etməsi, "bəy"in impiçmenti ilə bağlı əlaltından işlər görməsi barədə Tofiq Yaqublu əvvəllər dediklərini yenidən ictimailəşdirməsi açıq səmada sanki şimşəyin çaxması effekti yaradıb. Bəli, bunu Əlinin dostu Tofiq deyib.

Dediyimiz kimi, bu xəbər təzə deyil, hamı Əli Kərimlinin Elçibəyə qarşı hansı mənfur və iyrənc planlar cızdığından, ona qarşı kampaniyalar aparmasından məlumatlıdır. Amma faktın məhz Tofiq Yaqublunun dili ilə səslənməsi artıq bu adamın xəyanətkarlıqda mütəxəssis olduğunu bir daha təsdiq edir. Tofiq Əlini son zamanlar mitinq təşkil edə bilməməkdə suçlayır və onunla vidalaşmanın vaxtının çatdığına işarə vurur. Məqsəd bəllidir, biri var etiraza təkbaşına və cılız istəklər naminə qalxasan, biri də var müxalif partiya təmsilçilərini də arxana alıb meydanlarda təxribatla məşğul olasan, fərq bundadır. Bəli, söhbətin nədən getdiyini siz də tuta bildiniz. Tofiq Yaqublu Müsavatın sifarişi, daha doğrusu Sorosun təlimatı ilə Əlinin komandasını mənimsəmək, onların lideri olmaq istəyir. Yəni bir güllə ilə iki Əli, yaxud dovşan vurmaq...

Tofiq Yaqublunun dövlətə, xalqa qarşı çıxdığını subut etmək niyyətində deyilik. Zatən, görünən dağa nə bələdçi. Onsuz da xəyanətkarlığı ortadadır. Sadəcə, olaraq onun Əli Kərimli barəsində topladığı və Sorosa göndərdiyi kompramatlar barədə qarşı tərəfində məlumatı var. Əli Kərimli də eyni işləri görür, Tofiq haqqında ifşaedici faktlardan onda da var. Yəni taylı tayını, təxribatçı da təxribatçını tapıb. Tofiq Yaqublunun "süddən çıxmış ağ qaşıq" olmadığını hər kəs bilir, xüsusən də Kərimli.

Tofiq Yaqublunun I Qarabağ müharibəsində iştirak etdiyi barədə məlumatlar dolaşır. Bəzən onun bu "xidmətinə" görə bağışlanmasını istəyirlər. Gəlin, "Vətən" və "xəyanətkarlıq" sözlərini yanaşı qoyaq, bunları bir qazanda qaynatsan belə qarışmaz. Tofiq Yaqublu ilə Vətən, Qarabağ kəlmələrini də yanaşı qoya bilmərik. Canından keçməyə hazır olduğun, uğrunda gecə-gündüz döyüşdüyün, qarlı-çovğunlu, yağışlı-boranlı havalarda səngərdə yatdığın Vətəni satmaqmı olar? Tofiq Yqublu adlı siyasət dəllalının Qarabağ müharibəsində iştirak etməsi inandırıcı görünmür. Fikrimizi bir az da konkretləşdirsək daha maraqlı məqamları üzə çıxaracağıq. Sosial problemlərlə bağlı etiraz aksiyalarını başa düşdük, bəs Azərbaycan xalqı, ordusu Ali Baş Komandanın rəhbərliyi altında Qarabağı işğaldan azad etmək üçün silaha sarılanda Tofiq Yaqublu və ona oxşar ikiayaqlıların reaksiyasına, etirazına, qaralama kampaniyasına nə deyirsiniz? Vətənə, orduya, dövlətə müxalif olmaq nə deməkdir?

Bəli, mövzunun nə olduğu, etirazın hədəfinin hansı ünvan olduğu Yaqublunu heç maraqlandırmır da. Təki etiraz, təxribat, qarqaşa, münaqişə və nəhayət müharibə olsun. Onda Tofiqin işi "xod" gedəcək, hər təxribatın da öz qiyməti. Bu ikiayaqlı hələ də öz ampluasındadır. Yəqin ki, "qozbeli qəbir düzəldər" ifadəsi lap yerinə düşər. Bir el məsəli qaldı, "dəyirman öz işindədir, çax-çax baş ağrıdır". "İt hürər, karvan keçər" də demək istərdik.

***Siyasət şöbəsi***

# Ermənistanın mövqeyində QEYRİ-ADEKVATLIQ




**Son zamanlar dünyanın diqqətindən yayınmayan danışıqlar, daha dəqiq desək, Azərbaycanla Ermənistan arasında sülh məsələləri ilə bağlı müxtəlif platformalarda keçirilən görüşlər sülh müqaviləsinin imzalanmasına hesablansa da, rəsmi İrəvanın sülhə zidd mövqeyi ciddi nəticələrin əldə olunmasına maneə olaraq qiymətləndirilir. Hər dəfə keçirilən görüşlərdə Ermənistan tərəfi əsas məqsəddən yayınmağa şalışır və bu mövqeyi həmin ölkə hakimiyyətinin sülh danışıqları ilə bağlı verdi bəyanatları ilə qeyri-adekvat hesab olunur.**

Sözsüz ki, gah Qərbə, gah da Rusiyaya əl açan Ermənistan əvvəlcə birinə, sonra da digərinə mənasız yerə ümid etməklə ilk öncə özünü aldadır. Çünki bununla prosesləri ləngidir və düşdüyü vəziyyəti daha da qəlizləşdirir. Etiraf etmək lazımdır ki, 2020-ci ilin 10 Noyabr Bəyanatından sonra sülhə doğru xeyli irəliləyiş müşahidə olunub, hərçənd bu, kifayət qədər deyil. Məhz elə kifayət qədər olmayan irəliləyiş rəsmi İrəvan üçün arzuolunan nəticələr vəd etmir, hansıki biz bunu onsuz da müşahidə etməkdəyik. Paşinyan hakimiyyəti hər dəfə fərqli ritorika ilə çıxış etdikcə, Ermənistan sülhə zidd addımlar atdıqca, Azərbaycan beynəlxalq hüququn norma və prinsplərinə zidd olmayan şəkildə, haqq və hüquqlarından istifadə edərək strateji mövqelərini irəli çəkib, hansıki sonda ermənilər buna görə yuxularını da qarışdırıblar. Çünki bilirlər ki, Azərbaycanın gücü, qüdrəti, potensialı qarşısında acizdirlər və onlar deyinməkdən başqa çarələrinin olmadığını da artıq çoxdandır anlayırlar.

Maraqlıdır, Ermənistan tərəfi məhz mövqeyini köklü şəkildə dəyişməklə, prosesə mane olmamaqla sülh üçün düzgün imkanlar aramalı olduğu halda, hələ də qeyri-adekvat addımlar arayır. Məsələn, revanşizm kimi axmaq ideyaları ortaya atan haylar sadəcə suyu bulandırır, prosesi ləngidir, maneçilik yaradırlar. Halbuki, sülh sazişi onların özlərinə daha çox, hətta hava-su kimi lazım olandır. Çünki, onsuz da Azərbaycan istədiklərinə lazım olacağı təqdirdə hərbi yolla da nail ola bilər və bilir də, amma Ermənistan haqqında bunu demək mümkün deyil. Nəinki mümkün deyil, təcrübə göstərir ki, dəfələrlə buna cəhd edən Ermənistan layiqli cavabını alaraq yerində oturdulub. Danışıqlar masasında az da olsa mövqe qazanmaq üçün danışıqlardan öncə törətdikləri təxribatlar zamanı lazımınca susdurulduqları sirr deyil. Özü də 44 günlük müharibədən və hayların rüsvayçı məğlubiyyətindən sonra hansısa revanşizm istəyinə düşmək həm axmaqlıqdır, həm də milləti məhvə sürükləmək. Çünki heç bir resursu, arsenalı, hərbi potensialı, gücü, büdcəsi belə qalmayan səfil bir ölkənin belə bir xülyaya düşməsi özü-özünü məhv etmək strategiyasından başqa bir şeyə bənzəmir.

Sülh sazişi bağlamaq istəyən tərəf heç zaman hansısa dövlətin, özü də İran kimi, Fransa kimi bir dövlətin pozucu fəaliyyətinə müraciət etməzdi. Amma biz illər boyu bunun əksini müşahidə etdik. Müşahidə etdik ki, Ermənistan bir tərəfdən guya sülh sazişinin bağlanmasına tərəfdar olduğunu bəyan edir, digər tərəfdən sülhə mane olmağı ən ümdə vəzifə hesab etdiyini gizlətməyən molla rejiminin dəstəyinə, eləcə də separatçılıqda özlərindən geri qalmayan fransız bacılarının köməyinə bel bağlayır. Biz sözlə, sülh sazişi ilə bağlı rəsmi İrəvan bu zamana qədər qeyri-adekvat addımları ilə diqqəti cəlb edib və indi də belə olduğu hamıya bəllidir. Əks halda, haylar sülh sazişinə gedən yolu müvəqqəti proses kimi qəbul etməz, müxtəlif manipulyasiyalara əl atmazdılar. Bunu görmək üçün xüsusi bacarığa sahib olmaq tələb olunmur və hayların gah birinin, gah da ona əks tərəfin əlinə oynamaları müvafiq qənaətə gəlmək üçün kifayət edir.

Rəsmi İrəvan hələ də dərk etməkdə çətinlik çəkir ki, Azərbaycanın sülhə dair şərtləri qətiyyən dəyişən deyil və Bakının buna siyasi iradəsi çatır. Sərhədlərin delimitasiyasından tutmuş, Zəngəzur dəhlizi layihəsinə qədər Azərbaycanın mövqeyi, şərtləri dəyişməz olaraq qalır və haylar artıq dəfələrlə şahidi olurlar ki, bunun dəyişdirilməsi mümkün deyil. Əslində, haylar bilməlidirlər ki, ən yaxın zamanda hətta Qərbi azərbaycanlıların tarixi torpaqlarına geri dönüşünə qədər kəskin şərtlər Ermənistan qarşısında qoyula bilər. Ümumiyyətlə, Qərbi azərbaycanlıların tarixi torpaqlarına geri dönüşünü rəsmi Bakı vahid sülh paketində cəmləşdirməyi belə hədəfləyə bilər. Əslində, belə də olacaq. Çünki Qərbi azərbaycanlıların qayıdışı məhz Zəngəzur dəhlizinin açılması və sərhədlərin delimitasiyasından sonrakı mərhələ olaraq görülür, hansı ki, bunu məntiqi nəticə olaraq proqnozlaşdıranlar da az deyil. Onların fikrincə, köç prosesi sülhün elementi olaraq qəbul ediləcək və əgər Ermənistan Azərbaycanın delimitasiya şərtləri, Zəngəzur dəhlizinin açılması tələbləri ilə razılaşmasa, onda hərbi ssenarilərlə məqsəd reallaşdırılacaq və İrəvan yekunda nəticələrlə zorla razılaşmaq məcburiyyətində qalacaq. Məsələ burasındadır ki, Ermənistan tərəfi bunları sanki dərk etmək istəmir, ya da dərk etmir. Əks halda, vəziyyətini daha da qəlizləşdirmək üçün təhlükəli oyunlara baş vurmazdı. Elə bütün bunlar məhz rəsmi İrəvanın qeyri-adekvat addımlar atdığı qənaətinə gəlməyə əsas verir.

Təzad və qeyri-adekvatlıq ondan ibarətdir ki, bir tərəfdən Ermənistanın baş naziri Nikol Paşinyanla Azərbaycan Prezidenti cənab İlham Əliyev arasında danışıqlar intensivləşir, erməni baş nazir sülhdən dəm vurur, digər tərəfdən mövcud hərbi vəziyyət olduğu kimi qalır. Xüsusilə, Kişinyovda keçirilən danışıqlardan sonra sərhədin bir neçə istiqamətində Ermənistan tərəfinin atəş açması deyilənləti təsdiq edir. Sülh danışıqları aparmaq ilə gərginik yaratmaq qətiyyən bir araya sığmır, amma görünür Ermənistan tərəfi üçün bu uyğunsuzluq adi hal hesab olunur. Əks halda, ən azından danışıqlar prosesi fonunda bunu dünya müşahidə etməzdi. Eyni zamanda Rusiya sülhməramlılarının müvəqqəti yerləşdikləri Azərbaycan ərazilərindəki separatçıların təxribatlara ara verməmələri də sülh danışıqları prosesi ilə bağlı rəsmi İrəvanın göstərmək istədikləri ilə qətiyyən üst-üstə düşmür. Belə bir vəziyyətin Ermənistan tərəfindən yaradılması sülh modeli üçün əlbəttə ki, qeyri-adekvatdır. Həm də axı belə bir vəziyyət gələcək hərbi eskalasiya risklərinin artması deməkdir və bu da sülh danışıqları ilə bağlı situasiya üçün təzad olaraq görülür. Çünki bu vəziyyət danışıqlar üçün diplomatik proseslərin canlandırılması baxımından tamamilə əks və mənfi təsirə malikdir.

Sözsüz ki, Azərbaycanın istər hərbi-siyasi, istər diplomatik, istərsə də strateji üstünlükləri açıq-aşkar bəllidir və hamı tərəfindən etiraf olunur. Bunu heç təkzib etmək də mümkün deyil və Fransa kimi ermənipərəst dövlət belə buna cəhd etməyib. Çünki hər kəs üçün sirr deyil ki, ölkəmizin hər mənada üstünlükləri ona həm sülh danışıqlarında, həm də mümkün eskalasiya variantlarında nailiyyətlər vəd edir və dəfələrlə bunun şahidi də olmuşuq. Xatırladaq ki, 2021-ci ilin noyabrında və 2022-ci ilin sentyabrında sərhəddə baş vermiş toqquşmalardan sonra formalaşan mənzərə belə qənaətə gəlmək üçün kifayət edir. Ermənistan gah Fransanın, gah İranın, gah da hansısa ölkənin gündəminə arxayın olub, sülhə zidd olan mövqelərindən çəkinmədikcə, Rusiyanın, Qərbin regional gündəmlərinə həm bel bağlayıb, həm də ona arxa çevirmək prinsipindən əl çəkmədikcə regionda mütləq sülhdən danışmaq inandırıcı səslənmir. İyulun 21-i tarixi üçün planlaşdırılan və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin təşkil edəcəyi Brüssel görüşünə hazırlaşıldığı bir vaxtda regionda cərəyan edən hadisələr, sərhəddəki insidentlər heç də adekvat deyil və bu qeyri-adekvatlıq məhz Ermənistana məxsusdur, çünki insidentləri də təxribatları da törədən tərəfdir. Buna baxmayaraq, Ermənistan onsuz da sülhə məcbur ediləcək və çox aciz bir şəkildə, eyni ilə kapitulyasiya sənədini imzaladığı kimi, Nikol Paşinyan həmin sənədi də imzalayacaq. Çünki Qarabağdakı erməni separatçılarının silah təminatı yolu qapalı olduğu halda, Azərbaycan sərhədçilərinin Laçın yolunun Ermənistanla birləşən nöqtəsində keşik çəkərək Qarabağa giriş-çıxış üzərində hüquqi nəzarət həyata keçirdikləri təqdirdə hayları tam çarəsiz vəziyyətdə qalmış sayılırlar, hərçənd törətdikləri təxribatlar bu vəziyyətlə də üst-üstə düşmür, qeyri-adekvatlıq təşkil edir. Amma bilmələri gərəkir ki, bununla öz vəziyyətlərini daha da mürəkkəbləşdirmiş olurlar.



***İnam Hacıyev***

# İranın məkrli planları bumeranq effekti verəcək

## Şeytani və terrorçu molla rejimi ölkəmizə qarşı çirkin və məkrli əməllərini günahsız vətəndaşlarımızın üzərindən həyata keçirə bilər və bunu etməkdədir

**İran həmişə olduğu kimi, bu gün də hər vəchlə ölkəmizə qarşı məkrli planlarını həyata keçirməyə çalışır. Hər il olduğu kimi, bu il də aprelin 14-də İranda keçirilən "Qüds günü" bunun bariz nümunələrindən biridir. Aksiyalarda Azərbaycan əleyhinə yazılan şüarlarla yanaşı, "Qüdsə gedən yol Bakıdan keçir" məzmunlu plakatlar da yer alıb. Əslində bu, Ruhullah Musəvi Xomeyni İranda hakimiyyətə gələndən sonra dediyi "Qüdsün yolu Kərbəladan keçir" şüarının yeni formasıdır.**



Mollakratiyanın ölkəmizə qarşı təxribatçı əməlləri yalnız bununla bitmir. Son zamanlar Azərbaycanın hüquq-mühafizə və təhlükəsizlik orqanları tərəfindən respublikamızda İranın casus şəbəkələrinin ifşası bir daha sübut edir ki, molla rejimi öz agentləri vasitəsilə ölkəmizdə qarşıdurma, iğtişaşlar və terror aktları törətmək üçün ən çirkin vasitələrə əl atır. Bu barədə hətta xarici mətbuatda belə maraqlı məlumatlara rast gəlinir. Həmin məlumatlardan birində deyilirdi ki, İran Azərbaycana "şiş informatorları" adı altında 3500 agenti sızdırıb. Bu şəxslər ilahiyyat, siyasət, iqtisadiyyat, mədəniyyət, təhlükəsizlik, mülki, hərbi və diplomatik sahələrdə Tehranın şər oyunlarına xidmət etmək üçün strateji mövqelərə sahibləniblər.Tehran rejiminin ölkəmizdəki səfirliyi bu işləri koordinasiya etmək üçün demək olar ki, əsl casusluq və şər yuvasına çevrilib.





Bir müddət əvvəl ölkəmizin hüquq-mühafizə və təhlükəsizlik orqanları İran xüsusi xidmət orqanları tərəfindən maddi maraq və dini təbliğat yolu ilə ələ alınmış bir qrup Azərbaycan vətəndaşının ölkə ərazisində sabitliyin pozulması məqsədilə törədəcəkləri cinayət əməllərinin qarşısının alınması istiqamətində növbəti əməliyyat tədbirləri həyata keçirib.Müəyyən edilib ki, İran xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən Rufulla Axundzadə və oğlu Əlmürsəl Axundzadə ölkə ərazisində silahlı iğtişaşlar törətməklə Azərbaycan Respublikasının Konstitusiya quruluşunun zorla dəyişdirilməsi yolu ilə "Kərimə" dövlətinin qurulması, ictimaiyyət arasında tanınan və vəzifəli şəxslərin həyatına sui-qəsdlərin təşkil edilməsi məqsədilə müqavimətçi dəstələr təşkil etmək barədə xüsusi fəaliyyət planı hazırlayıblar. Həmin planın bir hissəsi kimi Rufulla Axundzadə "whatsapp", "telegram" və digər ani mesajlaşma sistemlərində məxfi qruplar yaradıb. Bundan başqa, R.Axundzadə və oğlu Ə.Axundzadə həyatlarına sui-qəsdlərin təşkil edilməsi üçün vəzifəli şəxslərin və ictimai xadimlərin siyahısını, onların anket məlumatları, yaşayış və iş yerlərinin ünvanlarını qrup üzvlərinə təqdim ediblər. Bu məqsədlə o, odlu silah əldə etmək və "Molotov kokteyli" hazırlamaqla bağlı qrup üzvlərinə tapşırıqlar verib.






Bu yaxınlarda isə Azərbaycan vətəndaşı, tələbə Fərid Səfərlinin İranda itkin düşməsi, sonradan onun həbs edilərək barəsində cinayət işinin açılmasının məlum olması molla rejiminin riyakarlığının növbəti göstəricisi oldu. Azərbaycanlı tələbənin İranda saxlanılması ilə bağlı məlumat daxil olduqdan dərhal sonra İran XİN-ə nota təqdim olundu. Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov məsələ ilə bağlı jurnalistlərə bildirib ki, Fərid Səfərlinin taleyi ilə bağlı informasiyanın əldə olunması kifayət qədər uzun müddət çəkib: "Həftələr sonra biz İran tərəfindən rəsmi məlumat aldıq ki, həmin adam saxlanılıb, o, ittiham olunur və onunla bağlı cinayət işi açılıb. Tələbə ilə İrandakı Baş konsulluğumuzun əməkdaşları arasında əlaqə var. Eyni zamanda, fiziki olaraq görüşün təşkil olunması istiqamətində iş aparılır. Tələbənin ailə üzvləri ilə də mütəmadi əlaqə saxlayırıq, məsələ nəzarətimizdədir".




Yeri gəlmişkən, bu hadisədən dərhal sonra Azərbaycan Xarici İşlər Nazirliyi vətəndaşlara zəruri olmadığı təqdirdə İrana səfər etməməyi, səfər edənlərin isə yüksək ehtiyatlılıq nümayiş etdirmələri kəskin şəkildə tövsiyə olunub.

Mollakratiyanın ölkəmizə qarşı məkrli planları bitib-tükənmək bilmir. Tarixçi alim Zaur Əliyev mətbuata açıqlamasında bildirib ki, son 10 ildə İran mediası arabir "Bakı Respublikası" sözünü istifadə etsə də, artıq bir ildir bütün sosial media və platformalarda, KİV-də bu ifadə geniş yayılıb: "Son iki aya isə artıq təhsil sistemlərində azərbaycanlı şagirdlərə zorla "Azərbaycan" sözünü pozub, "Bakı Respublikası" yazmağı öyrədirlər. "Bakı Respublikası" sözünü kütləvi şəkildə təhsil, elm və media dilinə gətirirlər. Siyasilər hələ cəhd etmirlər, amma siyasi partiyalara tapşırıq verilib ki, tədricən sənədlərdə "Azərbaycan Respublikası" sözünü "Bakı Respublikası" ilə əvəz etsinlər. İran bunu etməklə 40 milyonluq soydaşımızın beynini yumağa cəhd edir...".

Şübhəsiz, "Tehran respublikası"nın ölkəmizə qarşı məkrli əməlləri və planları bundan sonra da davam edəcək. Mahiyyət etibarilə bu şeytani və terrorçu rejim ölkəmizə qarşı çirkin və məkrli əməllərini günahsız vətəndaşlarımızın üzərindən həyata keçirə bilər və bunu etməkdədir. Təbii ki, bütün bunlar bumeranq effekti verəcək. Ancaq ayıq-sayıq olmaq hər birimizin ən ümdə vəzifəsi olmalıdır

***Zahid Rza***

# Yuri Şevtsov: "Bu regionda Çinin təsiri üstünlük təşkil edəcək"

Tanınmış belaruslu analitik Yuri Şevtsov "Caliber" analitik mərkəzinə müsahibəsində Yaxın Şərq regionunda gedən prosesləri analiz edib. Ekspertin müsahibəsini oxucularımıza təqdim edirik.

***- Yuri Vyaçeslavoviç, sizcə, hazırda İranla Əfqanıstan arasında münasibətlərin kəskinləşməsi irimiqyaslı hərbi eskalasiyaya səbəb ola bilərmi?***

- Sərhəddin həmin hissəsində hərbi toqquşmalar hər il baş verir, ona görə də ümumi plandan kənara çıxan çox böyük hadisə hələ baş verməyib. Amma indi dünyada hər şey o qədər gərgindir ki, hətta əvvəllər baş verənlər və bunun öhdəsindən gəlmək mümkün olduğunu göstərən hadisələr də bu gün insanlarda kütləvi panikaya, ölkələr arasında gərginliyə səbəb olur. Ancaq mən görmürəm ki, bu sərhəd vəziyyəti çox güclü birisi tərəfindən oyandırılıb. Taliban güclərini məhv etməmək üçün Əfqanıstandakı vəziyyəti gücələ saxlayır. Amerikalılardan aldıqları silahlar yavaş-yavaş köhnəlir, lakin amerikalıların Talibanla xüsusi əlaqəsi yoxdur. İsrailin də. Ona görə də bu sərhəd vəziyyətində böyük müharibənin başlanğıcını görməzdim. Düşünürəm ki, həm İran, həm də Əfqanıstan dayanacaq.




***- İranın nüvə proqramına görə İsraillə İran arasında hərbi münaqişə ehtimalından danışmağa dəyərmi? Ümumiyyətlə, İran nüvə silahı yaratmağa nail olacaqmı?***

- Fikrimcə, İranda nüvə silahının peyda olması barədə danışmağa dəyməz, çünki texnoloji cəhətdən o, hələlik ondan uzaqdır- bunun üçün lazım olan bütün komponentlərə malik deyil. Bundan əlavə, siyasi iradə anlayışı da var. Bildiyiniz kimi, İranda ölkənin nüvə silahına malik olmasını qadağan edən ayətullah fətvası var və mən düşünmürəm ki, İslam Respublikasında mənəvi rəhbərliyin icazəsi olmadan belə bir cəhd edilsin. Mənə elə gəlir ki, əgər İran həqiqətən də nüvə silahı istehsalına yaxındırsa, o zaman biz bunu göstərən bir çox müşayiətedici məqamlar görəcəyik.

***- Nə kimi?***

- Məsələn, bu fətvanın ləğvi və ya ən azından ləğv edilməsi məsələsinin gündəmə gəlməsi və s. İsrailin narahatlığı başa düşüləndir, lakin mən İranın tezliklə nüvə silahına sahib olacağını gözləməzdim.

***- Nüvə istehsalının yaradılmasının qarşısını almaq üçün ABŞ və İsrailin İranın strateji hərbi obyektlərinə zərbələr endirməsini istisna edirsiniz?***

- Bu, çox vacib mövzudur və adətən həm ABŞ-da, həm də İsraildə İranın nüvə proqramının inkişafına cavab olaraq müzakirə edilir, lakin orada çoxlu texniki çətinliklər var. Fakt budur ki, bu proqram səpələnmiş şəkildə qurulmuşdur, yəni bir neçə onlarla obyektə səpələnmişdir. Üstəlik, onların ən mühümləri Azərbaycana, daha doğrusu, Xəzər dənizinə daha yaxın yerdə cəmləşib və onu dayandırmaq üçün nüvə proqramı müəssisələrinə zərbə endirmək üçün belə bir əməliyyatın mümkünlüyünü təsəvvür etmək çətindir.

Amma İran və İsrailin Tehranın nüvə proqramı ilə birbaşa əlaqəsi olmayan başqa bir problemi var, bu müxtəlif yerlərdə ortaya çıxır. Bu, regionun müxtəlif ölkələrində, o cümlədən İsraillə sərhəddə - məsələn, Suriyada İranın himayə etdiyi qüvvələrin və ümumilikdə İran silahlı qüvvələrinin mövcudluğudur. Livanın cənubunda Hizbullah kimi mühüm bir sistem də var ki, bu da İsrail üçün əsl problemdir. Bunu hərbi yolla necə həll edəcəyini də təsəvvür edə bilmirəm, çünki Hizbullah uğurla müharibə aparmağa uyğunlaşan çox böyük bir birlikdir və çox güman ki, İsrail onu hərbi yolla yatırmağa cəsarət etməyəcək. O, artıq iki dəfə Livanın cənubunda Hizbullahı sıxışdırmağa cəhd edib, hər ikisi də uğursuz alınıb.

Digər tərəfdən, İsrailin bölgədə öz diplomatik siyasətini həyata keçirmək üçün bir çox razılaşmaları var. Müxtəlif tərəflərin razılaşdığı zaman bu region sözün həqiqi mənasında müxtəlif gizli sxemlərlə doymuşdur, ona görə də İsrail və ABŞ-dan İranla bağlı yaranan təhdidlər Yaxın Şərqdəki bu sonsuz razılaşmalar kontekstində nəzərdən keçirilməlidir. Onlar belə siyasətə öyrəşiblər, bu, necə deyərlər, işin qaydasıdır. Yəni, İsrail məsələn, İran İnqilab Keçikçiləri Korpusu qoşunlarının Suriyadan çıxarılmasına nail olmaq və ya başqa bu kimi məsələlər üçün bəzi diplomatik sxemləri həyata keçirir.

Və bu region üçün böyük diplomatiya səviyyəsində daha bir mühüm nüans: indi möhtəşəm bir hadisə baş verir- Səudiyyə Ərəbistanı ilə İranın barışığı açıq şəkildə elan edildi. Bunu anlamaq üçün bu faktı beynəlxalq münasibətlərdə zəlzələ kimi qiymətləndirmək olar. Üstəlik, bu yaxınlaşma o qədər göz qabağındadır ki, Səudiyyə Ərəbistanı daha əvvəl Türkiyə tərəfindən də elan edilmiş Şanxay Əməkdaşlıq Təşkilatına üzv olmaq barədə düşünür. Və Ərdoğanın prezident seçkilərindəki qələbəsindən sonra bu tendensiya daha da güclənəcək. Mən bu region ölkələrinin birbiri ilə, eləcə də Rusiya Federasiyası və Çinlə yaxınlaşmalarını artırmaq meylini nəzərdə tuturam. Üstəlik, bunun üçün bütün ilkin şərtlər var. Deməli, bu böyük hərəkat çərçivəsində biz gözləməliyik ki, İran və Səudiyyə Ərəbistanı ikitərəfli münasibətlərdə bir sıra ağrılı məsələləri, ilk növbədə Yəmən və Suriyadakı vəziyyəti həll etməyə başlamalıdır. Və burada İsrailin ehtiyatlılığını başa düşmək olar, çünki ABŞ regiondan demək olar ki, geri çəkilib və onların yerinə ŞƏT timsalında nəhəng inteqrasiya qüvvəsi gəlib. Odur ki, İsrailin hədələyici bəyanatları həm də o kontekstdə nəzərdən keçirilməlidir ki, o, ŞƏT ilə bağlı öz siyasətini müəyyənləşdirməlidir - bu regionda həddən artıq çox dəyişikliklər baş verir və Təl-Əviv bütün bunlardan çətin ki, kənarda qala bilsin.

***- Yəni, əslində, ŞƏT Səudiyyə Ərəbistanını tezliklə "böyüdəcək" deyə bilərik?***

- ABŞ qoşunlarını Əfqanıstandan, İraqdan demək olar ki, tamamilə çıxarıb, yəni onların regiona təsir alətləri köklü şəkildə zəifləyib. Ona görə də ABŞ ŞƏT-in regionda güclənməsindən nə qədər narazı olsa da, bu, təbii proses olacaq. Digər tərəfdən, Birləşmiş Ştatlar Səudiyyə Ərəbistanının ŞƏT-ə doğru irəliləməsinin qarşısını almaq üçün çoxlu alətlərə malik deyildir ki, bu da təkcə Amerika qoşunlarının sabit yerləşdiyi ölkələrdən çıxarılması ilə deyil, həm də onların möhkəmlənməsi ilə bağlıdır. Çinin bu region ölkələri üçün iqtisadi əhəmiyyəti güclüdür. Çin İran və Səudiyyə neftinin əsas istehlakçılarından biridir, buna görə də Pekin nə qədər möhkəmlənərsə və dünyanın ilk iqtisadiyyatı statusuna yaxınlaşarsa (növbəti 5 il ərzində bu məqsədə çatmalıdır), Çinin nüfuzu bütün planetdə, o cümlədən Yaxın Şərqdə bir o qədər çox olacaq. Bu, Səudiyyə Ərəbistanı ilə İran arasında barışıq fonunda Çinin iştirak etdiyi bir kombinasiyadır.

Bundan əlavə, ötən il İran və Çin arasında böyük müqavilə imzalanıb və bu müqaviləyə əsasən Pekin 25 il müddətinə Tehrandan çox böyük həcmdə neft almağı öhdəsinə götürüb. Beləliklə, ABŞ tərəfindən Tehrana sanksiya təzyiqi problemi kəskin şəkildə zəiflədi. Eyni zamanda Çin İran ərazisində sənaye obyektlərinə, nəqliyyat və enerji infrastrukturuna 200 milyard dollardan çox sərmayə yatırılacağına söz verdi və İran buna icazə verdi. Beləliklə, Çinlə uğurlu əlaqələr sayəsində İran indi ixracatının əsas sektoruna qarşı Qərb sanksiyalarının yumşaldılmasına nail olur, həmçinin sənayeləşdirmə proqramı üçün az-çox təminatlı böyük investisiyalar alır. Və bu vəziyyətdə Səudiyyə Ərəbistanının, ümumiyyətlə, getməyə yeri yoxdur. Yəni, o, İranla problemləri həll etməlidir, xüsusən də özünün Çin bazarına ehtiyacı olduğu üçün, çünki Amerikanın həm birbaşa, həm də dolayı yardımı kəskin şəkildə azalıb. Və buna uyğun olaraq, Ər-Riyad ŞƏT-ə doğru hərəkət edəcək.

Və ŞƏT-dən başqa, BRİKS də var və onların bir-biri ilə ortaq cəhətləri var. Məhz bu yay BRİKS-ŞƏT sammitində çox mühüm qərarların qəbulu gözlənilir.

***Tərcümə - Elçin Bayramlı***





## "Bu razılıq Paşinyanın şifahi razılıqları ilə keçməməlidir"

**"Ermənistanın sülh müqaviləsini imzalayıb-imzalamaması ilə bağlı məsələ 3 il əvvəl Moskva bəyanatının şərtlərində öz əksini tapmamışdır. Ermənistanla sülh müqaviləsinin imzalanmasından əvvəl erməni tərəfi Azərbaycan Prezidentinin problemin həlli məqsədilə irəli sürdüyü 5 mühüm şərtə razılıq verməlidir və bu razılıq təbii ki, Paşinyanın şifahi razılıqları ilə keçməməlidir". Bu fikirləri politoloq Elşən Manafov "Səs" qəzetinə açıqlamasında deyib.**

Onun sözlərinə görə, Azərbaycanın irəli sürdüyü şərtlər sırasında Paşinyanın Azərbaycanın ərazi bütövlüyünün, suverenliyinin tanınması faktından başqa, erməni tərəfindən gözlədiyimiz ciddi bir addım yoxdur: "Digər tərəfdən Ermənistanla sülh müqaviləsinin imzalanması hələ bölgədə nəqliyyat-kommunikasiya xəttlərinin açılması demək deyil və ya Azərbaycanın Qarabağ üzərində tam suveren hüquqlarının bərpa olunması deyil. Çünki erməni tərəfi Azərbaycanın yalnız Laçın dəhlizində sərhəd- buraxılış məntəqəsini qurmasını bəyan edərək Azərbaycanın guya Qarabağdakı erməni icmasını Ermənistandan təcrid etmək cəhdləri ilə bağlı məsələlərdə ittiham etdi. Əsas məsələ ondan ibarətdir ki, bu niyyətlərin arxasında Rusiya-Azərbaycan münasibətlərində gərginlik yaratmaqla bağlı məqamlar var. Heç şübhəsiz ki, bu sifariş Paşinyana onun Qərbdəki hami və havadarları tərəfindən verilir".

E.Manafov onu da bildirdi ki, Paşinyanın ABŞ- ın dəstəyi ilə hakimiyyətə gəlməsi bəllidir: "Paşinyan və onun komandası indi də beynəlxalq ekspertlər tərəfindən "Sorosun uşaqları" deyə adlandırılırlar. Sorosun isə məşhur milyarder və finantrop, o cümlədən MDB məkanındakı məlum "narıncı və rəngli inqilabların" müəllifi olması bəllidir. Bu inqilabın həyata keçirilməsində əsas məsələ bir qayda olaraq, MDB məkanı uğrunda gedən geosiyasi qarşıdurmada Rusiyanı zəif salmaq, tədricən MDB -nin Avropa hissəsini ABŞ-ın və Qərbin nəzarəti altına ötürməkdir. Bu mənada Paşinyanın açıqlamalarında geosiyasi ismarıcların olmamasını görmək mümkün deyil. Paşinyan bir dövlət olaraq Ermənistanın resurslarına arxalanaraq belə bir mövqe sərgiləyə bilməz. Onu buna sövq edən və vadar edən ABS- dır. Paşinyan özünün də açıqlamalarında bəyan etdi ki, perspektivdə Ermənistanı Avrasiya İqtisadi Birliyinin tərkibindən çıxmasına maraqlıdır.

Hətta Ermənistanı Kollektiv Təhlükəsizlik Müdafiə təşkilatının tərkibində qalmasına da heç bir ehtiyac görmür. Bəhanə də budur ki, bu blok Azərbaycanla müharibə zamanı Ermənistana heç bir əməli dəstək göstərməyib. Bu beynəlxalq hüququn və blokun nizamnaməsinin müddəalarını bilərəkdən görməzdən gəlməkdir. Azərbaycan Ermənistana hücum etməmişdi ki, Rusiya başda olmaqla Kollektiv Təhlükəsizlik Müdafiə Təşkilatı Ermənistanın köməyinə gəlsin. Təşkilatda olan bütün dövlətlərin prezidentləri, o cümlədən Rusiya prezidenti dəfələrlə bəyan etdilər ki, işğal altında olan torpaqların azad olunması Azərbaycanın beynəlxalq hüquqla təsbit olunmuş suveren hüququdur və ona görə də bu dövlətlər müdaxilə etmədilər. Ermənistan bunu bilməmiş deyil. Güman edirik ki, Paşinyan bir neçə il əvvəl Ermənistanda hakim siyasi elitanın başına gələn hadisələrdən xəbərdardır.

Nəhayət etiraf etmək lazımdır ki, Zəngəzur dəhlizinin açılması Azərbaycanla yanaşı Rusiya, Türkiyə, Çin, Mərkəzi Asiya, Avropa Birliyi və hətta Ermənistan üçün də böyük əhəmiyyət kəsb edir. Lakin erməni tərəfi bəyan edir ki, dəhlizə nəzarət Ermənistan sərhədçiləri tərəfindən həyata keçirilməlidir. Halbuki Moskva bəyanatının şərtlərində nəzarətin Rusiya sərhədçiləri tərəfindən həyata keçirilməsi öz əksini tapmışdır. Bu, Azərbaycan və Türkiyəni də qane edir. Ümumilkdə Qərb hər vəchlə Azərbaycanın 44 günlük müharibə nəticəsində bölgədə yaranmış yeni geosiyasi reallıqları dəyişmək istəyir".

***GÜLYANƏ***

# Azərbaycanın dünyadakı rolu qlobal əhəmiyyətlidir

## Aleksandr Duqin: "Azərbaycan çoxqütblü dünyanın qalası ola bilər və olmalıdır"



Çin bütün dünyada "Bir kəmər, bir yol" layihəsi çərçivəsində özünün iqtisadi əməkdaşlığını partnyorları ilə fəal şəkildə aparmaqdadır. Bununla yanaşı, Çin ABŞ-ın və Qərbin artan təzyiqləri ilə qarşılaşır. Çinə yönəlik istər əvvəllər, istərsə də indi barışmaz mövqedə dayananlardan biri də ABŞ-ın sabiq prezidenti Donald Trampdır. O, bu günlərdə bəyan edib ki, Çin koronavirus pandemiyasının vurduğu zərərə görə təkcə ABŞ-a 10 trilyon dollar təzminat ödəməlidir.

Çinə qarşı neqativ münasibət "Böyük yeddilik"lərin (G7) görüşündə də müşahidə olunub. NATO-nun sammitində isə Çin "kollektiv təhlükəsizlik qarşısında dayanan "çağırış" adlandırılıb.

### Çin Xalq Respublikası Bakı ilə partnyorluq edir

Bundan əvvəl ABŞ prezidenti Co Bayden Rusiya Federasiyasının prezidenti Vladimir Putinlə görüşündən sonrakı mətbuat konfransında bəyan edib ki, Rusiya Çinə qarşı tətbiq edilən təzyiqli vəziyyətə görə çox çətin situasiyadadır.

Lakin bütün bunlarla yanaşı, Çin Xalq Respublikası Bakı ilə partnyorluq edir. Pekin Azərbaycana investisiya qoyuluşlarını artırmaqla infrastruktur layihələri istiqamətində də əməkdaşlığını inkişaf etdirməyə hazır olduğunu nümayiş edir.

Bu barədə yaxınlarda telefon danışıqları aparan Azərbaycan Prezidenti İlham Əliyevlə ÇXR-in Baş katibi Si Tsinpin də fikir mübadilələri aparıblar.

Bəs Qərb tərəfindən Çinə qarşı tətbiq edilən güclü hücumlar nə ilə bağlıdır və bu hücumlar daha nələrə gətirib çıxara bilər?

### "Rusiya və Çin özlərini iki qütb kimi təqdim edirlər və Amerikanın dünyəvi hegemon olaraq idarəçiliyinə məhdudiyyətlər qoyurlar"

Siyasi elmlər doktoru, Rusiya filosofu və publisisti, Beynəlxalq Avrasiya hərəkatının lideri Aleksandr Duqin bu ətrafda maraqlı fikirləri ilə yadda qalıb.

"Əvvəlcə diqqəti ona çəkmək istərdim ki, bir çoxları ABŞ-da Donald Trampın tənqidçisi olan Co Baydenin Çinlə münasibətlərini yaxşılaşdıracağı, Rusiya ilə pisləşdirəcəyi barədə düşünürdülər. Ancaq eks-prezidentlə Ağ evin fəaliyyətdə olan dövlət başçısının siyasətləri çox az fərqlənir. Hər ikisi Rusiyaya qarşı çıxış edirdilər və indi də bu mövqedədirlər, o cümlədən, Çinə qarşı da bənzər çıxışlar olsa da, onlar müxtəlif intensivliklə müşahidə olunur", - deyən Duqin bildirib ki, burada söhbət yeni dünya düzəninin obyektivliyindən gedir: "Rusiya və Çin özlərini iki qütb kimi təqdim edirlər və Amerikanın dünyəvi hegemon olaraq idarəçiliyinə məhdudiyyətlər qoyurlar. Elə Tramp da buna reaksiya göstərirdi və Çini əsas iqtisadi rəqib kimi görürdü. Çin iqtisadi sferada ABŞ-a tabe olmur, Rusiya isə hərbi-strateji nəzər nöqtəsindən tabe olmayacağını nümayiş etdirir. Bax, beləcə iki qütb yaranır və onlar ABŞ-ın tək idarəçiliyini məhdudlaşdırır, qlobal layihələrinə mane olurlar.

Tramp ABŞ-ın milli maraqları təhlükəsinə diqqət yetirirdi. Bayden üçün hər şey daha ciddidir, belə ki, Rusiya və Çin dünya düzəninin alternativ qütbləri olaraq çıxış edirlər. Bu isə qloballaşmaya təhlükədir və qlobalistlərin düşüncələrinə görə suverenlik milli maraqların üstündə dayanan Qərbin və ABŞ-ın xeyrinə təhvil verilməlidir. Maraqlıdır ki, Amerikanın özündə millətçilər (Trampın tərəfdarları) və qlobalistlər (Baydenin tərəfdarları) Rusiya və Çinin dünyada oynamağa başladıqları bu rolların eyni ölçüdə qəbul etmirlər".

### İlham Əliyev müdrik və uğurlu siyasətçidir, O, atası Heydər Əliyevin yolu ilə gedir, Onun vəsiyyətini həyata keçirir, özü də parlaq nəticələrlə"

Beynəlxalq Avrasiya hərəkatının lideri Aleksandr Duqin sonda bildirib ki, o, Azərbaycanın sadiq dostudur, Azərbaycan Rusiya, Türkiyə və İran arasında avrasiyaçılıq baxımından böyük və həlledici əhəmiyyətə malik olan ölkə və xalqdır - Moskva üçün mühüm strateji partnyordur.

"Azərbaycan çoxqütblü dünyanın qalası ola bilər və olmalıdır. İlham Əliyev müdrik və uğurlu siyasətçidir, O, atası Heydər Əliyevin yolu ilə gedir, Onun vəsiyyətini həyata keçirir, özü də parlaq nəticələrlə. Və hər zaman yeni çağırışlara hazır olmaq lazımdır, İlham Əliyev bunu bacarır. Mən Ona inanıram, O öz xalqı və dövləti üçün ardıcıllıqla doğru yolu seçir", - deyə qeyd edən Duqin Azərbaycanın da çoxqütblü dünyaya inteqrasiya edə biləcəyinə ümid etdiyini bildirib.

### "Rusiya və Çin bərabərlik alyansındadırlar, ancaq ABŞ-la alyansa getməyəcəklər"

Duqin Çinin "Bir kəmər, bir yol" layihəsi müqabilində Avrasiyanın bütün sahilyanı bölgələrində geosiyasi və iqtidsadi modelinin ekspansiyasının gedəcəyini deyib: "Əslində, qərbin liberal qloballaşdırma binası "yanır". Ortaya çoxqütblü dünyanın mənzərəsi çıxır və orada Vladimir Putinlə Si Tsinpin yaşayır. Ona görə Trampın ardınca Bayden ortaya çıxaraq Çinlə sərt qarşıdurmaya gedir. Rusiya və Çin bərabərlik alyansındadırlar, ancaq ABŞ-la alyansa getməyəcəklər. Amerikanın Trampın dövründə, həmçinin Baydenin dövründə bərabərlik qütblərini tanımaları ehtimal olunmur. Amerika ilə müttəfiqlik hər zaman onun həlledici rolunu, ideologiyasını, onun marağını tanımağı əks etdirir", - rusiyalı siyasət elmləri doktoru bildirib.

### "Azərbaycana aidiyyatı olanlara gəlincə isə: əgər ölkə çoxqütblük əsasında özünün suveren, müstəqil siyasətini qurursa, onda bu, Çinlə iqtisadi partnyorluq, Rusiya ilə hərbi-siyasi əməkdaşlıq da ola bilər"

Filosof, həmçinin, Azərbaycanın Çinlə iqtisadi partnyor olması, "Bir kəmər, bir yol" layihəsi çərçivəsindəki əməkdaşlığı barədə də danışıb. Onun sözlərinə görə, Çinlə əməkdaşlıq yalnız o ölkələr üçün "toksik" ola bilər ki, onlar ABŞ-ın nəzarəti zonasında yer alırlar. Amerika bunu itaətsizlik aktı kimi qəbul edəcək. Dünya çətin keçid mərhələsindədir, çoxqütblü dünya eyni anda mövcuddur. Amerika rəhbərliyinin düşüncəsində vahid idarəçilik mərkəzi tərəfindən yönəldilən hər hansı "vahid dünya" təsəvvürü var: "Azərbaycana aidiyyatı olanlara gəlincə isə: əgər ölkə çoxqütblük əsasında özünün suveren, müstəqil siyasətini qurursa, onda bu, Çinlə iqtisadi partnyorluq, Rusiya ilə hərbi-siyasi əməkdaşlıq da ola bilər. Əgər Çin yaxındırsa, onda Rusiya lap yanındadır. Və yeri gəlmişkən, nəyə görə də Qarabağ azad olunandan sonra KTMT-yə və Avrasiya İqtisadi İttifaqına daxil olmaq məsələsi qoyulmasın? Buna manee yoxdur. Ardıcıl fəaliyyət göstərmək lazımdır. Mənim görüşümə görə, Türkiyəni də Avrasiya İqtisadi İttifaqına dəvət etmək lazımdır. Bizim hamımız məhz Avrasiya dövlətləri olaraq fəaliyyət göstərməliyik.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev suveren Azərbaycanın tərəfdarıdır, O, qəhrəmanlıqla ölkəsinin ərazi bütövlüyünü bərpa etdi. Və yeri gəlmişkən, bu prosesdə Vaşinqton deyil, Rusiya və Türkiyə özlərinin rollarını oynadılar".

*Afət Tahirqızı*



**Elçin Bayramlı**

# Təhsil nazirliyinə çətin suallar

**Orta məktəblərin 1-ci sinifə qəbul imtahanı zamanı nazirliyin körpələrə akademik suallar verməsi haqda sosial şəbəkədə yazdığım status Təhsil qruplarında geniş müzakirə olunur. İstifadəçilərin 99 faizi bu biabırçılığı tənqid edib və mənim fikirlərimi dəstəkləyib. Bəzi valideynlər və müəllimlər isə deyir ki, bəs zaman dəyişib, uşaqlar gərək bunları hələ danışmağı öyrənməmişdən əvvəl bilə.**

Hə vallah, baxın, avropalılar necə axmaqdır, 5-ci sinifədək uşaqlara belə şeyləri öyrətmirlər. Xüsusən də, dünyanın ən güclü təhsilinin olduğu Finlandiya. Necə böyük səhv edirlər. Ən doğrusu bizdədir. Ona görə də, uşaqlarımızın 90 faizi 5 ballıq sistem üzrə 1-2 qiymətdən o yana keçə bilmir.

Mən təklif edirəm ki, ana bətnində uşağa kimya, astronomiya, həndəsə kimi elmləri öyrədək, uşaq doğulan kimi də ona tətbiqi riyaziyyat, molekulyar biologiya və kvant fizikasını öyrədək. Baxçada isə astrofizikanı, antimaddə texnologiyasını, parapsixologiyanı, dini-fəlsəfi cərəyanları, geologiyanı, ezoterik elmləri öyrədək ki, yaradılışın sirlərinə vaqif olsun və 1-ci sinifə qəbul ola bilsin. Ayıbdır, zamandan geri qalar ey.

Ümumiyyətlə, ölkədə orta təhsil məcburi olduğu halda 1-ci sinifə qəbul imtahanı nə deməkdir? A kişi, nəyi və niyə imtahan edəcəksən? Bu körpə məktəbə elə A, B hərflərini, 2-nin üstünə 2 gəlməyi öyrənməyə gəlir də. Akademiyaya qəbul olunur?

Məktəbə qəbul zamanı yalnız uşağın danışa bildiyi, deyilən sözləri qavradığı, ağır psixi probleminin olub-olmadığı yoxlana bilər ki, beləlləri üçün xüsusi tədris proqramı olan məktəblər olur. Yoxsa, 6 yaşlı körpədən hansı planetlərin soyuq, hansının isti olmasını, qəliz coğrafi bilikləri, böyüklərin belə cavab verə bilmədiyi məntiqi sualları niyə soruşursan ki? Məqsədin nədir, fikrin nədir, nə etmək istəyirsən ki?

İndi gəlin mən sizə çox asan suallar verim cavablandırın.

1. Ağır fəsadlar verən və orta təhsilin məhvinə səbəb olan bu əcaib təhsil proqramını hardan, hansı ölkədən götürüb tətbiq edirsiniz? Dünyanın heç bir ölkəsində belə sistem yoxdur.

2. Kurrikulum adı verdiyiniz bu sistem məktəblərdə ağır vəziyyət yaradıb, müəllimlər gecə gündüz istismar olunur, şagirdlərin beyni xarab olur, valideynlər xərcə və əziyyətə düşür, ortada isə heç bir müsbət nəticə yoxdur. İmtahanların nəticəsi bunu sübut edir. Utanmırsınızmı?

3. Ali məktəbə qəbulun yalnız repetitorların sayəsində mümkün olduğu aydın olandan sonra daha bu nə ekspertimentlərdir təhsilin başında aparırsınız? İllərdir, ekspertlər deməkdən yoruldu, müəllimlər, valideynlər, şagirdlər şikayət etməkdən yoruldu, heç eyninizə də deyil. Usanmırsınızmı?

4. 1-ci sinifdən uşaqlara 3 dil və informatika (!) keçilməsi, şagirdlərin çoxsaylı ağır dərslərlə məktəbdə və evdə maksimum yüklənməsi açıq psixotron terror deyilmi və bunda məqsədiniz nədir ki?

5. Uşaqların dəftər kitablarla doldurduğunuz çantanı ağırlıqdan qaldıra bilmədiyindən çoxunun skalyoz olması fiziki terror deyilmi və bunda məqsədiniz nədir ki?

6. Şagirdyönümlü təhsil deyə-deyə uşaqlara mütləq hegemonluq ixtiyarı verib müəllimi niyə sındırmısınız, məktəbin əlindən tərbiyə və tənbeh funksiyasını niyə almışınız ki?

7. Müəllimləri tez-tez attestasiya və imtahanlarla niyə yorursunuz ki? Öz verdiyiniz diplomları zibil parçası sayırsınız? Yoxsa 50 ilin müəllimini təzədən öyrətmək fikrindəsiniz?

8. Yaşı və təcrübəli müəllimləri niyə məktəbdən didərgin salmağa çalışırsınız ki? Bunda məqsədiniz nədən ibarətdir?

9. Dərsliklərin bərbad vəziyyətdə olması, səhvlərlə dolu olması, dolaşıq olması ilə bağlı 20 ildir ortada olan problemi niyə həll etmirsiniz ki?

10. Bu qədər ciddi problemlərdən bircəciyi hər hansı bir ölkədə olanda həmin nazirliyin rəhbərləri istefa verir. Siz niyə istefa vermirsiniz ki?

Görəsən, bu suallara cavab verməyə cəhd edəcəksiniz, yoxsa indiyədək, bizə danışdığınız nağılları davam etdirəcək, o həmkarımızın sizə dediyi kimi, çoxlu danışıb heç nə deməmək prinsipini davam etdirəcəksiniz?

# Həbsdə həyat necə keçir?

## Psixoloq Məlahət Həsənova: "Onları həbsə keçmiş travmaları sürükləyir"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*







**Həyatının səhvini edən insanların əksəriyyəti sonralar bu əməlindən peşman olur - uzun illər azad səmaya barmaqlıqlar arxasından baxmaq məcburiyyətində qalırlar. Məhbuslara həbsxanalarda fiziki əməklə məşğul ola biləcəkləri bir mühit yaradılır, əl işləri, yüngül sənaye işləri, ayaqqabı sexi, tikiş, dərzi, toxuculuq, xarratlıq, bənnalıq, dəmirçilik kimi işlərlə də məşğul olmaq imkanları olur. Lakin uzun müddət həbsxanada qalan insanların ünsiyyət problemi də olur.**

Uzun müddət həbsdə olanların bəzilərinin həbsdən çıxandan sonra getməyə evi, görüşməyə qohumu yoxdur. Onlar yaşamaq üçün iş tapmalı, pul qazanmalıdırlar, lakin indi bu çox çətindir. Bəxt üzünə gülüb iş tapanlar isə əvvəllər məhkum həyatı yaşadığı bilindikdən sonra iş yerində stiqmaya məruz qala bilirlər. Həbsdə həyat necə keçir, keçmiş məhkumlar həbsdən sonra cəmiyyətə necə adaptasiya olurlar? Bu suallara psixoloq Məlahət Həsənova ilə cavab tapmağa çalışdıq.

***-Məlahət xanım, həbsxanaya düşənlərin hamısı pis insanlardır? Yoxsa həbsxana onları qəddarlaşdırır?***

-İnsanlar həbsxanaya niyə düşürlər? Gəlin əvvəlcə buna baxaq. Deməli, bu insanların psixologiyasında hansısa bir problem var, hansısa duyğu yetərsizliyi var, hansısa tamamlanmamış bir hissi, bir emosiyası var ki, nə cinayət işləyirlərsə, bunun adını qeyrət qoyurlar. Yaxud oğurluq edirlərsə, deməli, nə zamansa nədənsə məhrum olunublar və başlayırlar oğurluqla onu kompensasiya etməyə. "Qoy mənim də olsun" düşüncəsi ilə. Yaxud sevdiyi insan başqası ilə evlənir, başqasına verirlər, amma gedib həmin qızı öldürür. Bu, əslində, sevgi deyil. İnsan sevdiyi insanı necə öldürə bilər? Sonra da deyir ki, mən onu sevirdim, niyə başqası ilə evlənsin? Bu, artıq eqoizmdir. İnsanın reallıqla barışa bilməməsi, özgüvənin həddindən artıq aşağı olması, öz xoşbəxtliyini başqalarında tamamlanması gözləməsi. Bu kimi hallarda bu cinayətlər baş verir.

Deməli, artıq problem var ki, insan öz şüurundan, iradəsindən kənara çıxaraq başlayır cinayət törətməyə. Cinayət törədib həbsxanaya düşən insanların psixologiyası artıq məhv olub. Əlavə olaraq bir az da qapalı mühit, qapalı şərait, oradakı disiplinli həyat tərzi, müxtəlif insanların bir otaqda yaşaması və s. Bunlar hamısı təbii ki, insana təsir edəcək faktorlardır. Üstəlik, həm də məhbusdursa.

Bəzi məhbuslar kimisə döyməklə rahatlanırlar, bəziləri ibadət edərək kompensasiya edirlər, bəziləri isə ancaq özlərinə qapanırlar. Bizi bu gün narahat eləməlidir ki, niyə həbsxanalarda psixoloqlar yoxdur. Ümumiyyətlə, həbsxanaya düşən insanlara psixoloq lazımdırmı? Onların psixoloji dəstəyə ehtiyacları varmı? Təbii ki, var. Çünki insandır, nə cinayət törətməklərindən asılı olmayaraq. Onlar cəzalarını onsuz da çəkəcəklər. Amma bu həbsxanalarda mütləq onlara psixoloji dəstək lazımdır ki, onlar o dövrü ən az zərərlə başa vursunlar, gələcəkdə azadlığa çıxanda adaptasiya olunsunlar, evə qapanmasınlar və bu cinayəti bir daha törətməsinlər. Bunun üçün onların diqqətini yayındıracaq, məşğul olacaqları məşğələlər təşkil etmək lazımdır.

***-Peşman olmayan məhbuslar da var...***

-Var, doğrudur. Həbsdə olanların bəziləri deyir ki, mən peşman deyiləm. İllərdi oradadır, amma deyir ki, peşman deyiləm. Artıq o insanlar orada komfortdadılar, mənimsəyiblər mühiti, onlar üçün fərqi yoxdur. Əgər onlar azadlığa çıxacaqlarsa, yenidən səhv edəcəklər. Yenə də həmin hadisəni törətmək potensialları var. Onlar neçə il həbs yatırlar yatsınlar, o travma onların beynindədir. Oğurluğun, kimisə öldürməyin, dələduzluğun yaxşı əməl olmadığını onlara qəbul etdirmək çox zaman alır. Bunların doğru olmadığını, doğruları aşılamaq, psixoloji cəhətdən onları başa salmaq, özlərini tapmağa kömək eləmək lazımdır. Belə olsa düşünürəm ki, cinayətlərin sayı da azalar.

***-Təkrar cinayət edib həbsə qayıdanlar niyə edir bunu? Azadlıq onları niyə qorxudur?***

-Doğrudur, insanların həbsxanadan çıxıb ikinci dəfə həbsxanaya qayıtması hallarına çox rastlanır. Təzədən eyni cinayəti törədir, eyni maddə ilə yenidən içəri girir. Əksəriyyəti etdiyi hərəkəti səhv yox, doğru sayır. Elə bilir ki, etdiyi şey düzdür. Necə ki, insan uşaq vaxtı bir travma alır və ömrü boyu o travma onu izləyir. Ümumiyyətlə, bizim travmalarımız beynimizdə sxemlərlə formalaşır. Hər yaşda biz travmalarımızla əlaqədar sxemlər qura bilərik. Deyək ki, kimsə bir cinayət törətdi, bir insanın canına qıydı və bundan peşman olmadı. Ürək o qədər qatılaşıb ki, etdiyinin fərqində deyil. Təkrar cinayət törətməyin əsas səbəbi odur ki, onlar yaşadıqları həbsxana həyatından dərs çıxarmırlar və öz aqressiyalarına yenilirlər. Bunun da əsas səbəbi yenə deyirəm, düzgün olmayan tərbiyədir.

***-Həbsdən çıxan insanların cəmiyyətə adaptasiyası necə olmalıdır?***

-Həbsdən çıxan insanlara normal baxılmalıdır cəmiyyətdə, qınanılmamalıdır. Amma bir az fərqlidir. Gəlin bir az açıq danışaq, həbsdən çıxan insanlara elə baxırlar ki, bu insan həbsə girib-çıxıbsa, cinayət törədibsə artıq bunu aramıza almamalıyıq. Ailələri bir az dəstək olur, əgər anası varsa, bacısı varsa, atası varsa, nə xoş ki, onlar dəstək olurlar. Yaxud da həyat yoldaşları onları gözləyibsə, övladları onlar üçün darıxırsa, bu, həbsdən çıxan insan üçün ən yaxşı adaptasiya yoludur. Ailə mühiti görür, sevildiyini anlayır. Bəzən həbsdən çıxan insanlar qoyub getdikləri heç nəyi yerində görmürlər həbsdən sonra. Belə halda onlar mənəvi deqradasiya yaşayırlar və adaptasiya olunmaqları çox çətin olur. Onlara bir çox yerlərdə iş verilmir, sosial rifahları zəifləyir. Mən təklif edərdim ki, həbsdən çıxan insanlar üçün xüsusi iş yerləri açılsın, eyni həyat yolu keçən insanlar bir-birini yaxşı anlayır. Cəmiyyətə adaptasiya olunmaq üçün onlara xüsusi olaraq həbsxanadan çıxan ərəfələrdə psixoloji dəstək verilməlidir. Onlara ruh yüksəldən sözlər demək, psixoloji dəstək vermək lazımdır ki, başa düşsünlər ki, artıq onlar da bu cəmiyyətin bir fərdidirlər və bu cəmiyyətdə yaşamalıdırlar. Həm ailənin, həm qohumların, həm də dost-tanışın dəstəyi vacibdir.

***-Axı hər həbsdən çıxan tale qurbanı deyil, hamısı yaxşı adam deyil...***

-Doğrudur. Hansı maddə ilə tutulmağın özü də təsir edir cəmiyyətə adaptasiya olma prosesinə. Narkotik maddələrə görə həbsə düşənlər, təcavüz üstündə məhkum olunanlar məsələn. Onlar həbsdən çıxandan sonra yeni həyat qurmaları çox çətin olur. Evlənə bilmirlər, heç kim narkotik istifadəçisinə, təcavüzçüyə qız vermək istəmir. İşləyə bilmirlər, çox yerdə iş verilmir ki, həbsxanada olub. Qohumların stiqması çox olur, çünki həbsdə olan qohum digər qohumların iş həyatına mənfi təsir edir, işlə bağlı tərcümeyi-halında həbsdə olan qohumu olduğu anlaşılır. Qınaq çox vaxt belə yaranır. Doğrudur, o bir cinayət törədib, amma cinayətin cəzasını çəkib, artıq azadlıqdadır. Etdiyi səhvə görə ömür boyu qınamaq, təkrar-təkrar törətdiyi cinayəti ona xatırlatmaq, onu bunun üçün günahlandırmaq doğru deyil. O da bilir etdiyinin səhv olduğunu, həyatını yeniləmək üçün dəstək istəyir sadəcə. Biz həmişə öz pasiyentlərimizlə söhbətləşəndə, terapiya zamanı deyirik ki öz içindən başla dəyişikliyə. Nə vaxt daxilin düzələ, şəfalansa sən də aydınlanacaqsan. Bəli, o özgüvəni yenidən bərpa etmək üçün kənar münasibətlər qədər daxili "mən"i də əhəmiyyətlidir.

***-Həbsxanada əmək, məşğuliyyət onların yaxşı adam olmalarına nə qədər təsir göstərir?***

-Həbsxanalarda emalatxanalar olur, xalçaçılıq, bənnalıq, xarratlıq, toxuculuq, dərzilik kimi. Həbsdə olan insanlar üçün bu cür məşğuliyyət sahələr həm də onların həbsdən sonrakı həyatları üçün yatırımdır, kapitaldır. Elə pasiyentlərim olub ki həbsdə dərzilik, gözəllik ustalığı öyrənib, indi öz zəhmətinin bəhrəsini görür, işləyir, yaxşı pul qazanır. Onlar həbsxanada həm boş vaxtlarını faydalı keçirirlər, həm də peşə öyrənirlər, pul qazana bilirlər. Düzəltdikləri əl işlərini satmaq imkanları olur. Həbsxanadan çıxandan sonra həm işlə təmin olunmuş olurlar, həm də həbsxana müddətində işləyib pul qazanırlar. Onların düşüncələri də müsbətə doğru dəyişir, emosiyaları yumşalır. Çünki təcrübə göstərir ki əl əməyi ilə məşğul olan insanlar mülayimləşir, mənəvi rahatlıq tapırlar. İş insanın cövhəridir, həbsxanada da, azadlıqda da. İnsan işlədikcə başı qarışır, neqativ şeylərdən uzaq olur. Elə özümüzdən götürək. İşimiz olmayanda, həyatımızda bir az durğunluq olanda darıxırıq. Daimi məşğuliyyət axtarırıq. İş, peşə öyrənmək məhkumların gələcək həyata həm adaptasiya olunmasına, həm öyrənib həbsdən çıxdıqdan sonra sosial-iqtisadi vəziyyətlərinin yaxşılaşmasına kömək edir. Üstəlik, ölkənin yaxşı ustalara həmişə ehtiyacı var, qoy keçmiş məhkumlar da bir vaxtlar həbsdə olmaqları ilə yox, yaxşı usta olmaqları ilə xatırlansınlar.

***Lalə Mehralı***



# Eden Hazard açıqladı: "Futbolu buraxdım!"



Dünya futbolunda daha bir ulduz yaşıl meydanlarla vidalaşıb. Madrid "Real"ının belçikalı ulduz futbolçusu Eden Hazard peşəkar futbolçu karyerasını bitirdiyini elan edib. "Çelsi"dən 115 milyon avroluq transfer qiyməti ilə Kral klubunun tarixində ən bahalı futbolçu olaraq tarixə keçən belçikalı hücumçu, müqaviləsinin bitməsinə 1 il qalmış belə bir qərar verib."Futbolu buraxıram, bundan sonra daha çox özəl həyatıma vaxt ayıracam"-belçikalı forvard belə deyib. "Monde departivo" yazır ki, müqaviləsi başa çatmamış klubdan ayrıldığı üçün E.Hazard "Real"dakı bir çox alacaqlarından da məhrum olub.

***Mətləb Salahov***

# XƏBƏRDARLIQ: "Təhsil şirkətlərinə müraciət edərkən diqqətli olmaq lazımdır"



EKSPERT İZAH ETDİ

"Xaricdə distant təhsil alan şəxslərin ölkəmizdə diplomunun tanınıb-tanınmaması məsələsi məhz qanunvericiliklə tənzimlənir. Yeni Azərbaycan qanunvericiliyində distant təhsil diplomları tanınmır. Ali Təhsil haqqında qanun layihəsi Milli Məclisdə müzakirə edilir, hansı ki, ilk dəfə olaraq belə bir qanun layihəsi qəbul olunacaq". Bu sözləri SİA-ya açıqlamasında Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fəlsəfə doktoru İlqar Orucov deyib.

Onun sözlərinə görə, bu layihəyə distant təhsillə bağlı bənd daxil edildiyi təqdirdə diplomlar tanına bilər: "Əks halda isə bu mümkünsüz hal olacaq. Biz müvafiq çərçivələri müəyyənləşdirməsək, təbii ki, burada sui-istifadə halları ilə də qarşılaşa bilərik.

Pandemiya distant təhsili gündəmə gətirdi, aktual etdi. Bu baxımdan hesab edirəm ki, ən qabaqcıl təcrübələr öyrənilməli və proses qanunla tənzimlənməlidir. Distant təhsil diplomları tanındığı halda, Azərbaycan universitetləri də distant təhsil vermək imkanı əldə edəcəklər. Əlbəttə burada ixtisaslara görə istisnalar da olacaqdır. Çünki tibb ixtisası üzrə distant təhsil qeyri-mümkündür. Eynilə də bu cür sadalaya biləcəyəmiz bir çox ixtisaslar var.

Xaricdə təhsil almaq üçün universitet seçimində də diqqətli olmaq lazımdır. Təbii ki, dünyanın nüfuzlu universitetlərində təhsil almaq heç bir problemə yol açmaz. Lakin bütün universitetlər də bu sıraya daxil ola bilmir. Xüsusilə də xaricdə təhsil adı ilə gəncləri müxtəlif xarici universitetlərə yönləndirən şirkətlər var. Bu cür şirkətlərə müraciət edərkən diqqətli olmalı və əsaslı araşdırma aparmaq mütləqdir".

***Səbinə Hüseynli***

# Nar dəyərli hədiyyələrlə dolu yay müsabiqələrinə başlayır

Mobil operator Nar musiqi və dəyərli hədiyyələrlə dolu yay müsabiqələrinə start verir. Məşhur "Darvish Band" ilə birgə ərsəyə gələn müsabiqələr Nar abunəçiləri üçün dinamik yay vəd etməklə yanaşı, texnologiyanın gücünü və musiqiyə olan həvəsi bir araya gətirmək məqsədi daşıyır.

Gənclərin dinamik musiqi zövqünə ortaq olan Nar, abunəçiləri üçün əyləncə dolu müsabiqələrdə iştirak edərək dəyərli hədiyyələr qazanmaq şansı yaradır. Hədiyyəli müsabiqələrdən birincisində gənclər enerji dolu həyat tərzlərinə uyğun olaraq seçilmiş Samsung Galaxy Tab, Apple Watch və JBL qulaqlıqları əldə edəcəklər.

Yay boyunca Nar abunəçiləri növbəti müsabiqələrdə daha da dəyərli hədiyyələr qazanmağa davam edəcəklər. Qarşıdan gələn müsabiqələr haqqında ən tez xəbər tutmaq üçün Narın sosial media səhifələrini (Facebook, Instagram, Twitter) izləməyə davam edin.

Nar hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. Nar son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

# Əri üçün 60 minlik tort sifariş etdi, sonda ŞOKA düşdü!

Türkiyədə sosial media fenomeni kimi tanınan Dilan Polat həyat yoldaşı Engün Polatın ad gününə maraqlı sürpriz edib. Türkiyənin hürriyet.com.tr saytındakı məlumatda deyilir ki, tanınmış media fenomeni ərinin ad günü üçün sifariş verdiyi tort hədiyyəsinə düz 60 min türk lirəsi xərcləyib. Lakin sifariş edilən tort evə gətirildiyi zaman şok yaşanıb. D.Polat hazırlanan tortun keyfiyyətindən və dizaynından narazı olduğu üçün qəzəbini sosial şəbəkə hesabından dilə gətirib: "Tortu hazırlayan xanıma sözüm yoxdur. Mənim 60 minlik sifarişim artıq heç oldu. Biz belə dizayn gözləmirdik. Bu firma ilə bütün əlaqələri kəsəcəm, onlardan bir daha heç nə alınmayacaq"-deyə D.Polat təpki göstərib.

# Vətəndaşlıqdan necə çıxmaq olar?




"Azərbaycan Respublikasının vətəndaşlığından çıxma şəxsin vəsatəti üzrə həyata keçirilir". Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin Sədri Fariz Əkbərov deyib.

Onun sözlərinə görə, Azərbaycan Respublikasının vətəndaşlığından çıxmaq barəsində vəsatət qaldıran şəxsin dövlət qarşısında icra edilməmiş öhdəlikləri və ya Azərbaycan Respublikasında hüquqi və fiziki şəxslərin mənafeləri ilə bağlı olan əmlak öhdəlikləri varsa, vətəndaşlıqdan çıxmaq haqqında vəsatəti tərəfindən rədd edilə bilər: "Azərbaycan Respublikasının vətəndaşlığından çıxmaq barəsində vəsatət qaldıran şəxs müttəhim kimi cinayət məsuliyyətinə cəlb edilmişsə, yaxud onun barəsində qanuni qüvvəyə minmiş və icra edilməli olan məhkəmə hökmü varsa və ya şəxsin Azərbaycan Respublikası vətəndaşlığından çıxması Azərbaycan Respublikasının dövlət təhlükəsizliyi mənafelərinə ziddirsə, həmin hallar aradan qalxana qədər vətəndaşlıqdan çıxmağa yol verilmir".

Fariz Əkbərov sözlərinə belə davam edib: "Azərbaycan Respublikası vətəndaşlığından çıxma barədə Azərbaycan Respublikasının xaricdə olan diplomatik nümayəndəliklərinə və konsulluqlarına daxil olmuş sənədlər Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə göndərilir.

Azərbaycan Respublikası vətəndaşlığına xitam verilməsi haqqında qərar Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 20-ci bəndinə müvafiq surətdə Azərbaycan Respublikası Prezidenti tərəfindən qəbul olunur.

Belə ki, Azərbaycan Respublikasının aidiyyəti dövlət orqanlarının əsaslandırılmış rəylərinə baxılaraq Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlıq Məsələləri Komissiyanın qəbul etdiyi qərar əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən şəxsin vətəndaşlığına xitam verilməsi barəsində müvafiq sərəncam verilir".

***Ayşən Vəli***

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**